# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 26 (3442) Cümə axşamı / 7-13 iyul 2022-ci il Qiymәti 40 qәpik


MÜSAHİB

## Qurban Bayramının özəllikləri



**Hacı Fuad Nurullayev,**
Qafqaz Müsәlmanları İdarәsi sәdrinin müavini, Qazılәr Şurasının üzvü

*Qafqaz Müsәlmanları İdarәsi sәdrinin müavini, Qazılәr Şurasının üzvü Hacı Fuad Nurullayev hafta.az üçün budәfәki müsahibәsindә koronavirus pandemiyası ilә bağlı әksәr mәhdudiyyәt vә qadağalar aradan qaldırıldıqdan sonra keçirilәn Hәcc mәrasimi vә Qurban bayramlarının icrasındakı dәyişikliklәr, işğaldan azad edilmiş torpaqlarımızda gözlәnilәn bayram tәdbirlәrindәn danışdı, Hәcc ziyarәti vә qurbanlıq heyvanların kәsimi ilә bağlı şәri hökmlәr barәdә oxuculardan ünvanlanmış sualları cavablandırdı.*

Zәvvarlarımızla mütәmadi әlaqә saxlayırıq; heç bir ciddi problemlәri yoxdur, xoş xәbәrlәrini alırıq

Sәh. 7

DİASPORA



**Mayisә Ağamirzәyeva,**
"Ana Vәtәn" Avropa Azәrbaycanlı Qadınlar Birliyinin sәdri

■ Bu gün Azәrbaycan vә Türkiyә diasporu birlikdә hәrәkәt edir

■ Yaradılması ulu öndәr Heydәr Әliyevin adı ilә bağlı olan dogma Komitәmiz 20 il әrzindә enişli-çıxışlı yollar keçәrәk, özünü doğruldub

■ indi öz fәaliyyәtini hәrtәrәfli quran güclü Azәrbaycan diasporu formalaşmağa başlayıb

Sәh. 4

# Ermənilərin Laçın təxribatı

***B**ir aya yaxındır ki, Ermәnistanda revanşist qüvvәlәr vә Azәrbaycanın Yuxarı Qarabağ bölgәsinin Rusiya hәrbiçilәrinin nәzarәtindә olan hissәsindә varlığını sürdürmәyә çalışan separatçı rejimin qalıqları Laçın rayonu әtrafında tәxribat mahiyyәti daşıyan çağırışlar edirlәr. Yeni Laçın yolunun istifadә verilmәsi ilә paralel Laçın rayon mәrkәzi vә әtraf kәndlәrin Azәrbaycanın nәzarәtinә qaytarılmasının vacibliyini qәbul etmәyәn daşnaklar yenidәn silaha sarılmağa, bu ideyanın reallaşmasının qarşısını almaq üçün müharibәyә başlamağa çağırırlar. Qanunsuz olaraq işğal dövründә Laçın rayonu әrazisindә Suriya vә Livandan gәtirilәrәk mәskunlaşdırılmış ermәnilәr dә bu әraziləri tәrk etmәyәcәyini, silahlı müqavimәt göstәrәcәklәrini bәyan edirlәr. Proseslәrlә bağlı 10 noyabr razılaşmalarının yerinә yetirilmәsinә mәsuliyyәt daşıyan Rusiya sülhmәramlı kontingenti isә hәlәlik susqunluq nümayiş etdirir.***



Müәyyәn dairәlәr isә «Laçın düyünü»nün tezliklә müsbәt istiqamәtdә hәll edilmәyәcәyi tәqdirdә bölgәdә yeni müharibә ehtimalının artacağı qәnaәtindәdir. Proseslәrin mәlum gedişi bölgәdәki hәrbi-siyasi vәziyyәtә necә tәsir göstәrәcәk? Hafta.az mәsәlәni hәrbi ekspertlәrlә müzakirә edib.

■ **Elxan Şıxәliyev, hәrbi ekspert:**

- Yeni Laçın yolunun güzәrgahının tamamlanması ilә әlaqәdar yolun әtrafındakı kәndlәrdә, xüsusәn dә Zabux kәndinә mәskunlaşmış ermәnilәrin etiraz etmәsinin heç bir әsası yoxdur. Bu yolun tәhvil verilmәsi vә Laçın әrazisindәki kәndlәrdә yaşayan ermәnilәrin köçürülmәsi 10 noyabr üçtәrәfli bәyanatda öz әksini tapıb.



Ermәnilәrin o әrazilәrdә qalması "Laçın dәhlizi" dediyimiz yolun Laçın şәhәrinin içәrisindәn keçmәsi ilә mümkün olurdu. Tәzә yol, Laçın şәhәrinә girmәdәn birbaşa Xankәndinә gedәcәk nәqliyyat yolu olacağından artıq Laçın rayonu ermәnilәr yaşadıqları әrazilәr dә daxil bizә tәhvil verilmәlidir. Mövcud vәziyyәti Laçında qalıb yaşayan ermәnilәrin düşüncәlәri sәviyyәsindә qiymәtlәndirmәyimiz düzgün deyil. Hansısa bir ermәninin, yaxud kәndin bәlәdiyyәsinin "biz burdan çıxmayacağıq" , demәsi cәfәngiyyatdır vә bir az da çarәsizlik sindromudur. Ermәni әsilli әhalinin o әrazidәn çıxmasını tәmin edәcәk qüvvә elә әrazidәki sülhmәramlıdır. Tәrәflәrin qәbul elәdiyi müddәalara әsasәn ermәnilәr müvәqqәti yerlәşdiklәri yaşayış mәntәqәlәrini tәrk etmәlidir.

Ermәnilәrin Ermәnistana doğru hәrәkәti yeni yolla tәmin olunur. Bu yolun tәhlükәsizliyi sülhmәramlıların bu bölgәdә qaldığı müddәtdә onlar tәrәfindәn müşayәt olunacaq. Ona görә dә hesab edirәm ki, ermәnilәrin Laçında qalmaq üçün müharibә edәcәklәri ilә bağlı bәyanatları qeyri-ciddidir. Ona görә ki, öhdәlik yerinә yetirilmәlidir. Әgәr Rusiya sülhmәramlıları bu ermәnilәri köçürdә bilmәsә, bunu bizim silahlı qüvvәlәrimiz, dövlәt orqanlarımız özü edәcәk.

Ermәnilәr bu prosesdә Azәrbaycan silahlı qüvvәlәrinә, polisinә qarşı müqavimәt göstәrmәk istәsәlәr, biz dә öz öhdәmizә düşәn işi görәcәyik. Ona görә dә biz Laçında yaşayan hansısa ermәninin belә çıxışlarından narahat olmalı deyilik. Ermәnilәr zamanında Kәlbәcәrdәn, Ağdamdan, Laçının digәr kәndlәrindәn dә çıxmaq istәmirdilәr. Yәqin ki, yenә dә öz xoşları ilә getmәsәlәr, bunu mәcburetmә әmәliyyatları ilә hәyata keçirәcәklәr. Hәr halda yeni yolun açılmasının vaxtı göstәrilib. Ermәnilәr Laçını tәhvil vermәlidir. Bu prosesin üzәrindәn hәr hansı yeni müharibә olmayacaq. Artıq Ermәnistanın baş naziri dә bu yöndә çıxış edәrәk "әhali köçürülmәlidir" deyir. Әslindә orda qalan ermәnilәr Rusiya sülhmәramlılarına xidmәt göstәrәn bir kateqoriyaya aiddir. Ermәnilәr gündәmi dәyişmәk üçün nәsә deyә bilәrlәr, gündәmi dәyişmәyә çalışarlar, amma arxalarında düşündüklәri kimi nә hәrbi, nә dә iqtisadi güclәri mövcuddur. Revanşist qüvvәlәrin avantürist bәyanatları keçmişdә qaldı.

Onların bәyanatlarını әsaslandıracaq heç bir real qüvvәlәri yoxdur. Xüsusәn dә komando briqadalarımız bu әrazilәrә bir nәfәs qәdәr yaxındırlar. Ona görә dә gәlәcәyә baxacağıq. Üçtәrәfli sazişdә Azәrbaycanın lehinә nә yazılıbsa, hamısı hәyata keçәcәk.

Sәh. 6

> *Әgәr Rusiya sülhmәramlıları bu ermәnilәri köçürdә bilmәsә, bunu bizim silahlı qüvvәlәrimiz, dövlәt orqanlarımız özü edәcәk*
>
> *Hәm daxili qoşunlar, hәm dә Müdafiә Nazirliyinin komando qüvvәlәri qısa müddәtdә tam şәkildә hәr şeyi öz nәzarәti altına alacaqlar*
>
> *Tәrәflәr 10 Noyabr tәlәblәrinә riayәt etmәk mәcburiyyәtindәdir*

GÜNÜN FOTOSU...



**Başı qalmaqallardan açılmayan Britaniya Baş naziri Douninq Stritdәn çıxarkәn**

GÜNÜN SİTATI

> *Qәrbin problemlәrinin hәllindә Türkiyәnin vә Azәrbaycanın rolu, xüsusilә, qaz tәhlükәsizliyi baxımından Azәrbaycanın rolu olduqca artıb*



**Cahit Bağçı,**
Türkiyәnin Azәrbaycandakı sәfiri

KARİKATURA




**Sәrhәddәki ermәni tәxribatları**

## Türkmәn qazının Azәrbaycan yolu

**İlham Şaban,**
Neft Araşdırmalar Mәrkәzinin rәhbәri

Tranz-Xәzәr boru kәmәrinin effektli işlәmәsi üçün minimal 10 milyard kubmetr qaz lazımdır.

Sәh. 5

STATİSTİKA



■ **Bu ilin I yarısında Azәrbaycanın dövlәt büdcәsi xәrclәrinin 8 714,1 milyon manatı vә yaxud 67,4% cari xәrclәr, 3 434,8 milyon manatı vә yaxud 26,5%-i әsaslı xәrclәr, 787,7 milyon manatı vә yaxud 6,1%-i isә dövlәt borcuna vә öhdәliklәrinә xidmәtlә bağlı xәrclәr olub.**

Bunlar ötәn ilin eyni dövrü ilә müqayisәdә müvafiq olaraq 13,8% çox, 12,5% çox vә 10,8% azdır.



Sәh. 7

## Azad edilmiş rayonlara sәyahәt

PREZİDENTİN İŞ GÜNÜ

# Prezident Ramana qəsəbəsində olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Ramana qəsəbəsində görülən abadlıq işləri ilə tanış olub. Hafta.az xəbər verir ki, "Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov qəsəbədə görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.**

**Bünyad Qasımov:** Cənab Prezident, bu, yeni işıqlandırma sistemidir.

**Prezident İlham Əliyev:** Qənaətlə işləyir?

**Bünyad Qasımov:** Cənab Prezident, bunlar yerli, Azərbaycanda istehsal olunan divarüstü işıqlardır. Bütün kənd 100 faiz tam işıqlıdır.

**Prezident İlham Əliyev:** İşıqlandırılıb. İş yerləri də yaradılıb.

**Bünyad Qasımov:** 300 iş yeri artıq mövcuddur. Planlaşdırmışıq, ilin sonuna qədər 450-yə qədər iş yeri açdıraq.

Bildirildi ki, Ramana qəsəbəsində yenidənqurma işləri yekunlaşıb, qəsəbədaxili yollar asfaltlanıb, divar və dam örtükləri yenilənib, küçələrin işıqlandırılması həyata keçirilib. Qəsəbənin Həsənbəy Zərdabi, Xanlar, Mirzəağa Əliyev, Əbdürrəhman bəy Haqverdiyev və qəbiristanlıq ətrafı küçələri tamamilə yenilənib. Həmçinin ərazi tullantılardan təmizlənib.

Diqqətə çatdırıldı ki, Ramana qəsəbəsi Abşeron ərazisində turizm marşrutlarına daxil edilə biləcək abidələrlə zəngindir. Onlardan biri qəsəbənin girişində əzəməti ilə diqqəti cəlb edən, XII-XIV əsrlərə aid olduğu bildirilən Ramana qalası yüksək nöqtədə yerləşir. Ehtimal edilir ki, divarlarının hündürlüyü 15 metr olan qala müdafiə məqsədilə tikilib və Şirvanşahlar dövləti dövründə qəsr kimi istifadə olunub. Məşhur "Koroğlu", "Nəsimi" və "Babək" filmlərinin müəyyən səhnələri Ramana qalasında çəkilib.

Dövlət başçısı qalada aparılan bərpa işləri ilə tanış oldu. Ramananın qədim abidələrindən biri də Novruzqulu hamamıdır. Prezident İlham Əliyevə bu qədim hamam barədə də məlumat verildi. Bildirildi ki, keçmişdə hamamda dörd quyu fəaliyyət göstərsə də, indi onlardan üçü mövcuddur. Novruzqulu Babakişi oğlunun adını daşıyan hamam Abşeron yarımadasında yeganə tikilidir ki, onun sənədləri toplanıb və təsdiqlənib. Hamamın binasında keyfiyyətli bərpa işləri görülüb.

Qeyd edilib ki, Ramanada yenidənqurma işləri zamanı ətraf mühitin qorunması, qəsəbənin ekoloji vəziyyəti prioritet məsələlərdən biri olub.

Dövlət başçısına Ramanada əhalinin məşğulluğunun artırılması sahəsində görülən işlər barədə də məlumat verildi. Qeyd edildi ki, qəsəbədə xalçaçılıq müəssisəsi və satış mağazası açılıb. Yaradılan yeni iaşə və xidmət obyektlərində məhsulların istehsalı və satışı həyata keçirilir. Bu obyektlər müştərilərə yüksək səviyyədə xidmət göstərmək, onların rahatlığını təmin etmək üçün zəruri vasitələr və avadanlıqlarla təchiz olunub.

Məlumat verildi ki, Pirşağıda hazırlanan quru meyvələrin satışı da Ramanada həyata keçiriləcək. Səyyar satış obyektləri və köşklərin quraşdırılması ilə məşğulluğun artırılmasına nail olmaq, həmçinin yerli əhali və turistlərin ehtiyaclarını qarşılamaq mümkündür.

Ramanada reallaşdırılan layihələrdən biri də vertikal bağçılıq layihəsidir. Layihənin məqsədi özünəməşğulluğun artırılmasına, aztəminatlı ailələrin daha çox gəlir əldə etməsinə və ailə təsərrüfatlarının inkişafına dəstək olmaq, həmçinin yaşıllıqların genişləndirilməsinə, bitkiçiliyin və kənd təsərrüfatı məhsulları emalının inkişafına töhfə verməkdir.

Dövlət başçısı Ramanadakı evlərdən birinin həyətində qəsəbə sakini ilə söhbət etdi.

**Prezident İlham Əliyev:** Salam, necəsən?

**Sakin:** Sağ olun, yaxşıyam.

**Prezident İlham Əliyev:** Sənin evindir?

**Sakin:** Bəli. Yeni abadlaşdırılmış Ramana kəndimizə xoş gəlmisiniz. Hər zaman Siz gələsiniz.

**Prezident İlham Əliyev:** Çox sağ ol.

**Sakin:** Gördüyünüz bu evdə şəhid əmim Allahverdi Allahverdiyev qalıb.

**Prezident İlham Əliyev:** Birinci Qarabağ müharibəsi şəhidi?

**Sakin:** Bəli, Birinci Qarabağ müharibəsinin veteranı Fərzəli Fərzəliyev babamdır, əmim də var Namiq Allahverdiyev, o da müharibə veteranıdır.

**Prezident İlham Əliyev:** Sən bu işlə də məşğul olursan?

**Sakin:** Bəli, cənab Prezident.

**Bünyad Qasımov:** Damcı üsulu ilə suvarmadır.

**Prezident İlham Əliyev:** Çiyələkdir?

**Bünyad Qasımov:** Bəli, çiyələkdir. Yenidir, 10-15 gün olar. Bir-iki aydan sonra buralar hamısı yaşıl olacaq, cənab Prezident.

**Prezident İlham Əliyev:** Çox yaxşı.

**Bünyad Qasımov:** Qışda göyərti, yayda da çiyələk əkilir.

Prezident İlham Əliyev: Görürəm bu ev də, həyəti də təmir olunub.

**Bünyad Qasımov:** Ümumiyyətlə, Sizin tapşırığınıza və göstərişinizə əsasən, evlərin damları, qapıları, divarları, darvazaları əsaslı təmir edilib. Şəhid və veteran ailələrinin evlərinə xüsusi diqqət yetirilib.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Sağ olun.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# İrəvanda qalan tarixi irsimiz

***Ermənistanın Azərbaycana qarşı əsrlərboyu apardığı faşizm siyasəti bu gün də öz izlərini məhv edilmiş tarixi ərazilərimizdə, abidələrimizdə əks olunur. Yüz illərdir, tarixi Azərbaycan torpağı olan İrəvanda, hazıda Ermənistan adlı dövlət kimi tanınan o yerlərdə, Azərbaycanın itirilmiş, dağıdılmış abidələri qalır. Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində azərbaycanlılar zaman-zaman "türk"ə nifrət ideologiyası altında öz torpaqlarından qovularaq milli-mənəvi, maddi-ruhi soyqırımına məruz qoyulub, tarixi məhv edilib. Bu gün də Ermənistan adlı torpaqlarda Azərbaycan mədəniyyətinə aid olan çox az sayda abidə qalıb ki, alimlərimiz bu istiqamətdə dünyaya SOS siqnalı verməkdədir.***



## Gündəm

Bu gün tarixçi alimlər İrəvan şəhərində Azərbaycan milli-mədəni, tarixi irsinin sonuncu qalığı Təpəbaşı məhəlləsinin taleyini araşdırır və milli hüquqlarının müdafiəsi istiqamətində məqamları önə çəkirlər. Elə bu günlərdə Ermənistanda Azərbaycan xalqının irsinin dağıdılması və tarixi izlərinin silinməsi üzrə aparılmış araşdırmanın və onun nəticələrini əks etdirən kitabın təqdimatı keçirilib.

Həmin kitabda Azərbaycanın qədim tarixi torpağı olan İrəvan şəhərinin, o cümlədən Təpəbaşı hissəsinin tarixi, şəhərdə Azərbaycan irsinin yüz il əvvəl başlanmış və hələ də davam edən sistemli dağıdılması prosesi Təpəbaşı məhəlləsinin son qalıqlarının da sökülərək, məhəllənin tamamilə məhv edilməsi təhlükəsi barədə mühüm məlumatlar toplanıb.

■ **Mövzu ilə bağlı "Həftə içi"nə açıqlama verən Təpəbaşı abidəsini araşdıran AMEA-nin baş elmi işçisi tarixçi Səbuhi Hüseynov bildirib.** O, araşdırmalarında həmin faktları bir daha ortaya çıxarıb ki, Təpəbaşı məhəlləsi Azərbaycan mədəniyyəti və o cümlədən, bəşər mədəniyyəti üçün son dərəcə önəmli əhəmiyyət kəsb edir. Tarixi İrəvan şəhərinin özəyi sayılan bu hissə vahid tarixi-şəhərsalma mühitini özündə əks etdirir.

Tarixçi qeyd edib ki, vaxtilə azərbaycanlılardan ibarət olan bu məhəllənin etnik tərkibi tarixin üç mərhələsində (1918-1920-ci illər, 1948-1953-ci illər, 1988-ci illər) süni şəkildə dəyişdirilib və bu gün ermənilərdən ibarət monoetnik məhəlləyə çevrilib.

S.Hüseynovun sözlərinə görə, araşdırmalar sübut edir ki, Təpəbaşı vahid tarixi-şəhərsalma mühitidir və bu yer İrəvan şəhərinin tarixi nüvəsidir.

"Təpəbaşı İrəvanın ən böyük hissələrindən biri olub. O, 1808-ci ilə aid xəritədə Təpəbaşının yalnız təpədə olan hissədən ibarət deyil, qala divarlarına qədər çatdığının əksini tapdığını bildirib.

Hazırda İrəvan şəhərinin Təpəbaşı hissəsindən təkcə Təpəbaşı məhəlləsinin ərazisi müəyyənləşdirilərək, mövcud abidələrin bazası yaradılıb.

Araşdırmalar zamanı müəyyən olunub ki, Təpəbaşı məhəlləsində azərbaycanlılar həmişə üstünlük təşkil edib. Lakin zaman-zaman onlar Ermənistandan deportasiya olunublar. Araşdırmalar azərbaycanlılara məxsus tikililərin, habelə İrəvan şəhərindəki müsəlman abidələrinin erməni vandalizminin qurbanına çevrildiyi bir daha ortaya qoyulub".

Tarixçı bütövlükdə İrəvanda, o cümlədən şəhərin Təpəbaşı məhəlləsində xalqımızın milli-mədəni, tarixi irsinə qarşı Ermənistanın həyata keçirdiyi mədəni soyqırımı ilə bağlı Azərbaycanın bir qrup elm xadimi və ictimaiyyət nümayəndələri tərəfindən UNESCO-nun Baş direktoru Odre Azuleyə müraciət ünvanlandığını deyib.

Tarixçi kitabda İrəvanın Azərbaycan tarixi abidələrinin nüvəsi sayılan Təpəbaşı məhəlləsi nümunəsindən çıxış etməklə, Ermənistanda Azərbaycan xalqının məhv edilmiş tarixi və mədəni irsi mövzusunda çıxış edərək bir sıra faktlara diqqət çəkdiyini deyib.

Bildirib ki, araşdırma bir müddət əvvəl Strateji Kommunikasiyalar Mərkəzində başlanmışdır. Ekspert qrupunun köməkliyi ilə Məhəllənin tarixi öyrənilib.

Arxiv sənədlərinə əsasən, 1831-ci ildən etibarən İrəvan şəhərinin məhəllələri, küçələri və maddi mədəniyyət abidələri müəyyən edilmiş və informasiya sistemində XX əsrin 60-cı illərindən günümüzədək əldə edilən süni peyk görüntüləri ilə şəhərin dəyişmə dinamikası və Azərbaycan xalqına məxsus maddi mədəniyyət abidələrinin dağılma prosesi izlənilmişdir.

"Araşdırma nəticəsində, İrəvan şəhəri Qala hissəsindən başqa Şəhər (Şəhri), Dəmirbulaq və Təpəbaşı hissəsindən ibarət olmuşdur.

Hazırda tarixi İrəvan şəhərindən yalnız Təpəbaçı hissəsinin 16 ha-a qədər azalan Təpəbaşı məhəlləsi qalır. 300-ə yaxın obyektdən ibarət olan bu məhəllə İrəvan şəhərinin nüvəsi sayılır. Yəni, şəhər formalaşarkən mövcud olan ilk yerlərdəndir. Bu üzdən, hələ ki, məhəllədə mövcud olması müəyyən edilən memarlıq və arxeoloji abidələr XVIII - XIX əsrlərə aiddir.

XIX əsrin I yarısında Təpəbaşı hissəsində yerləşən küçə və məhəllələrin adları Azərbaycan adları idi. Məsələn, Dərəkənd, Axund, Xan bağları, eləcə də Əsəd bəy, Adalyar, Təpəbaşı, İmarət və Daşlı küçələrini sadalamaq olar. Hal-hazırda Ermənistan Milli Arxivində saxlanılan kameral təsvirlər həmin küçə və məhəllələrin 190 il öncə inventarlaşdırılmasını və etnik tərkibini göstərən sübutlardır. Təpəbaşı öz memarlığı və tarixi ilə Azərbaycan tarixinin bir hissəsini təşkil edirdi". S.Hüseynov İrəvanın tarixi abidləri sırasında "Göy məscid"i qeyd edib.

"Məscid İrəvan xanlığının Qacar elinin Ziyadlı oymağının rəhbəri Xəlil xanın oğlu olan Hüseynəli xanın sifarişi ilə 1762-1783 -ci illərdə inşa edilmişdir. Hüseynəli xan qardaşı Həsənəli xanın ölümündən sonra İrəvan xanı (1756-cı il) olmuşdu. olmuşdu. Tarixi mənbələrdən bəllidir ki, Hüseynəli xan İrəvan şəhərinin inkişafı üçün Xoy xanı Əhməd xanın baş memarı olan Mirzə Cəfəri İrəvan şəhərinə dəvət etmişdir. Göy məscidin inşa edildiyi yerdə XVII əsrdə İrəvanda olmuş J.Şardenin

> *Təpəbaşı öz memarlığı və tarixi ilə Azərbaycan tarixinin bir hissəsini təşkil edirdi*

məlulamtlarından məlum olur ki, Div Sultan adlı məscid olmuşdur. 1679-cu il zəlzələsindən sonra bu məscid də digər İrəvan memarlıq nümunələri kimi yer üzündən silinmişdir.

Görünür, zəlzələnin fəsadlarını aradan qaldırmaq üçün Zal xan tərəfindən aparılan bərpa işləri zamanı məscidin də yenidən inşa edilməsinə başlanmışdı. Hüseynəli xan İrəvan şəhərində Göy məscidi də bu həmin məscidin yerində yenidən inşa etdirmişdi. Məscidin adı Hüseynəli xanın adı ilə adlandırılmışdır. Sonralar məcdiddə göy çinilərin çox olması səbəbindən Göy məscid adını almışdır.

Məscid İrəvan şəhərinin Cümə məscidi sayılırdı. Bundan başqa, Göy məscid XIX əsrdə həm də İrəvan şəhərinin ən iri təhsil ocağı idi. İ.Şopenin verdiyi məlumata görə, Hüseynəli xan məscidində mədrəsə də fəaliyyət göstərirdi. Bütün yuxarıda göstərilənlərlə bərabər onu da bildirmək istəyərdik ki, Göy məscid İrəvan Quberniya Ruhani İdarəsinin mərkəzi sayılırdı. Azərbaycan Respublikası Dövlət Tarix Arxivində saxlanın sənədlərdə Göy məscidin fəaliyyəti ilə bağlı yüzlərlə sənədlər saxlanmaqdadır. Bu sənədlərdə məscidin fəaliyyəti, ruhanilərin təyin edilməsi, məscidin mülkiyyətinin idarə olunması və digər sənədlər toplanmışdır. Məsələn, arxiv materiallarından məlum olur ki, Göy məscidin böyük vəqf mülkləri olmuşdur. İrəvan qəzasının Yuva, Bəycəzli, Axund Buzovand, Qara Həmzəli, Caharbağ və Sarvanlar kəndində böyük torpaq ərazilərinə malik olmuşdur. Arxiv sənədlərində bu torpaq sahələrinin icarəyə verilməsi və istifadəsi haqqında müxtəlif sənədlər də yer alır. İrəvan Quberniya Ruhani Məclisinin üzvlərinin tərkibinə baxdıqda aydın olur ki, 1918-ci ilə qədər fəaliyyət göstərmiş məclis üzvlərinin hər biri azərbaycanlı türk olmuşdur.

1918-1919-cu illərdə dağıdılan Göy məscid sonradan Ermənistan SSR dövründə məscid öz funksiyasını itirərək 1931-ci ildə şəhər muzeyinə, sonra isə planetariuma çevrilmişdi.

1995-ci ildə İrəvan hakimiyyəti Göy məscid və onun yerləşdiyi ərazi istifadə hüququ ilə təmənnasız olaraq, 99 illiyinə İran İslam Respublikasının Ermənistandakı səfirliyinə mədəniyyət mərkəzi kimi təhvil verildi. Bununla Azərbaycan xalqının maddi mədəniyyət və dini abidəsini siyasi manipulyasiyalar alətinə çevrildi. Ha-zırda Göy məscid "fars və ya İran məscidi" kimi İrəvan şəhərinə gələn qonaqlara təqdim edilir".

"Ermənistan faşizmi Azərbaycan torpaqlarını işğala məruz qoyduğu bu 30 il ərzində dünya əhəmiyyətli tarix-memarlıq abidələrini, məscidlərini, şəhərləri, kəndləri, nadir ağacları məhv edib, viran qoyub. Bu sırada II minilliyin sonlarına aid olan və Orta Tunc dövrü insanlarının yaşayış izlərini daşıyan Üzərliktəpə arxeoloji abidəsidir. 1993-cü ildən ermənilərin işğalı altında olan abidə ərazisi 2019-cu ilə kimi mütəmmadi olaraq hər il ermənilər tərəfindən yandırılmışdır".

■ **Bu barədə hafta.az-a açıqlama verən taixçi Faiq İsmayılov Azərbaycan tarixi abidələrinin araşdırılması və 1990-ci illərdən bu yana dağıdılan abidələrimizin bugünkü aqibətinə diqqət çəkərkən bildirib.**

F.İsmayılov Ermənistan və erməni vandallarının mənfur, insanlığa utanc gətirən siyasəti nəticəsində Ağdam rayonu ərazisindəki Qutlu Musa türbəsini misal olaraq qeyd edib.

Tarixçi həmin abidənin uzun müddət baxımsızlıqdan qəzalı vəziyyətə düşdüyünü, türbənin fasadlarını bəzəyən unikal divar rəsmlərinin boyanaraq məhv edildiyini, interyerindəki oyma naxışlı daş plitələrinin dağıdıldığını önə çəkib.

Tarixçi qeyd edib ki, Şuşa şəhərinin tarixi mərkəzində yerləşən abidələr şəhərin 90-cı illərdə ermənilər tərəfindən bombardıman edilməsi zamanı ciddi zədə alıb. Bir çox abidələr tamamilə yer üzündə silinib. Onun sözlərinə görə, 1992-ci ildə şəhərin ermənilər tərəfindən işğal edilməsindən sonra burda olan İslam memarlıq nümunələrinin hamısı tamamilə və ya qismən dağıdılıb.

F.İsmayılov 1992-ci ildə Laçın rayonunun işğal edilməsi ilə ermənilərin nəzarəti altına keçən Sisərnəvəng monastırının da 1999-2000-ci illərdə "təmir" edildiyini bildirib. O, bu zaman abidənin dam örtüyü, fasadları və interyerinə ciddi dəyişikliklər edildiyini vurğulayıb. 2020-ci il bəyanatına əsasən Laçın rayonu ərazisini tərk edən ermənilərin monasıtın həyətində yerləşən VI-IX əsrlər və sonrakı dövrlərə aid bədii təsvirli daşlar və xaç daşları aparmalarını əks etdirən fotolar sosial mediada yayımlanmışdır.

F.İsmayılov bildirib ki, əgər siz Bərgüşad çayının sahiliboyu qədim Zəngəzur torpaqlarına səfər etsəniz, mütləq Laləzar çöllər və ermənilərin dağıtdıqları kəndlərimizin xarabalıqları ilə mütləq qarşılaşacaqsınız.

"İşğal dövrü ermənilər demək olarki Qubadlının bütün yaşayış məntəqələrini dağıdaraq ərazini xarabalığa çeviriblər. Bir çox tədqiqatçılara görə, bərgü sözü qədim türk mənşəli barq tayfasının adındandır.Tədqiqatçıların fikrinə görə, bərgülər monqol işğalından xeyli əvvəl Azərbaycanda məskunlaşmışlar. Toponimin tərkibindəki şad/şat sözü isə bir növ cəmlik bildirir. Bərgüşad mahalı, Bərgüşad dağları, Bərgüşad çayı, Bərgüşad çökəyi toponimləri "bərgülərin mahalı", "bərgülərin dağı", "bərgülərin çayı", "bərgülərin çökəyi" mənasındadır. Bərgüşad toponimi çox geniş coğrafi areala sahibdir.

Orta əsrlərdən 1933-cü ilə qədər Bərgüşad mahalı Həkəri çayı ilə Bərgüşadçay arasındakı ərazini əhatə etmişdir. Bu tayfa adı Bərgüşad coğrafi ərazi adından götürülüb. Bərgüşad mahalı XVIII əsrin ortalarına qədər Zəngəzur mahalının tərkibində Qarabağ xanlığına inzibati ərazi vahidi kimi tabe edilərək, Qarabağ xanlığının idarəçiliyinə verilmişdi.

1933-cü ildə Bərgüşad mahalı ləğv edilərək onun əsasında Qubadlı rayonu təşkil olunub. 1963-cü ildə Qubadlı rayonu ləğv edilərək ərazisi Zəngilan rayonu ilə birləşdirilib. Qubadlı 1964-cü ildə yenidən müstəqil rayon olub.

Qubadlı rayonu ərazisində dövlət qeydiyyatında olan 67 tarix və mədəniyyət abidəsi olub. Bu abidələrin ən möhtəşəmlərindən biri Bərgüşad çayı üzərindəki Laləzar körpüsüdür". F.İsmayılov bildirib ki, indiki Ermənistanın Tavuş bölgəsindəki, Barana (Noyanberyan) rayonunun Dostluq - Qurumsulu (Barekamavan) kəndindəki xristianlığaqədərki dövrə aid olan abidə öz mövcudluğunu qoruyub saxlasa da, orginal görkəmində və təqdimatında ciddi pozuntulara yol verilir.

Onun sözlərinə görə, Qurumsulu abidəsini qədim Azərbaycanın misilsiz gözəlliyə malik və az öyrənilən abidələrindən biri kimi təqdim etsək heç də səhv etmərik. Abidə Qurumsulu (Barekamavan) kəndinin yaxınlığında yerləşir.

"Tədqiqat zamanı bu abidə haqqında praktik olaraq heç bir məlumata rast gəlmədik.

Abidənin inşa tarixinin eramızın IV əsrinə aid olduğu güman edilir. Memarlıq quruluşuna görə abidə 14 guşəli, günbəzli türbə üslubunda inşa edilib. Abidənin karnizi müxtəlif heyvan heykəlləri ilə bəzədilib. Hal-hazırda abidənin günbəzi ermənilər tərəfindən uçurdulub.

Ermənilər öz xislətlərinə uyğun olaraq abidənin şərq pəncərəsinə 2004-cü ildə xaçşəkilli bir daş quraşdıraraq, bu abidənin erməni xristian dövrünə aid olduğunu iddia etməyə başladılar. Bu xaç daşının abidənin interyerinə və ümumi quruluşuna heç bir aidiyyəti yoxdur və heç bir mahiyyət daşımır.

Ermənistan hökumətinin müvafiq qurumları abidəni ibadətgaha çevrmək istəsələr də, yerli sakinlər abidənin onların dininə heç bir aidiyyatı olmadığını düşünürlər. Qəribədir ki, abidəni mənimsəməyə cəhd edən ermənilər, abidənin adında fərq etmədən türk toponimindən istifadə ediblər. Belə ki, abidənin adını khach (xaç) yəni xaçlı abidə kimi səsləndirirlər".

> *Azərbaycanın qərbi dağıdılaraq orada Ermənistan dövləti qurulub və həmin ərazilərdə olan saysız abidələrimiz məhv edilib*

F.İsmayılov Azərbaycan tarixinin yüzillərboyu erməni faşistləri tərəfindən dağıdılması ilə bağlı saysız-hesabsız faktların olduğunu bildirib.

"Azərbaycanın Qərbi dağıdılaraq orada Ermənistan dövləti qurulub və o ərazilərdə olan saysız abidələrimiz məhv edilib. Müasir dövrümüzdə də biz dağıdılan abidələrin araşdırılması və bərpası istiqamətində işləməliyik. Azərbaycan çox böyük haqsızlığa məruz qalıb. Yenə faktlara istinad etmək istərdim:

Ermənistan Respublikasının Aparan (Abaran) rayonunun Damcılı kəndi - ermənilər bu kəndin adını 1935-ci ildə Mravyan, 1991-ci ildə isə dəyişərək Eqipatruş adlandırıblar. 1000 illik tarixi olan Damcılı kəndinin əhalisi Azərbaycan türklərindən ibarət olub. 1988-ci ildə azərbaycanlılara qarşı tətbiq olunan etnik təmizləmədən sonra kənddə bir nəfər də olsun türk qalmayıb.

Damcılı kəndi mahal mərkəzindən 27 km şimal-şərqdə, dəniz səviyyəsindən 2000 m yüksəklikdə, Aparan şəhərindən 15 km cənubda, Aparan su anbarının cənub-şərqində, İrəvan-Aparan magistral yolundan 10 km sağ tərəfdə yerləşir. Kəndin sol tərəfində Sovet dövründə min illik tarixi olan qədim şəhər qalıqları aşkar edilmişdi. Arxeoloji qazıntılar zamanı kəndin ərazisindən eramızdan əvvəl III-II minilliklərə aid bəzək əşyaları, saxsı damqalar tapılmışdı. Kənddə IV-V əsrlərə aid Alban dövrü memarlığının unikal nümunələrindən olan monastr da mövcud olmuşdur.

1980-1988-ci illərdə Ermənistanda baş qaldıran şovinist millətçilər tərəfindən kəndin bütün əhalisi deportasiya edilmiş, kənddə türk xalqının izini silmək üçün tarix və mədəniyyət abidələri dağıdılmış, bir çox bədii daş nümunələri və daş kitabələr məhv edilmiş, bina və qurğular uçurdularaq yararsız hala salınmışdır. 1991-ci ildə Damcılı kəndində ermənilər məskunlaşdırılsalar da, kəndin mədəni dəyərlərinin bərpasına Ermənistan hökuməti tərəfindən icazə verilməmişdir".

Tarixçi F.İsmayılov Azərbaycan tarixinə qaşı ermənilər tərəfindən bir genosid siyasəti aparıldığının cildlərlə qalaqlanmış faktlarla sübut olunduğunu deyib. O, bu sənədlərin-faktların İSESKO, YUNESKO qarşısında qaldırılmasına və haqqlarımızın bərpasının millətin gələcəyi, tarixi baxımından böyük əhəmiyyət daşıdığını bildirib.

✍ *Tahirə*

Müsahib

# "Antiterror əməliyyatlarına başlamalıyıq..."



**Elman Məmmədov,**
Milli Məclisin deputatı

***44** günlük savaşda məğlub olan Ermənistan və çarəsiz havadarları Qarabağda yeni oyunlar qururlar. Postmüharibə dövründə dağıdılmış ərazilərin bərpası ilə məşğul olan Azərbaycan dövləti, cəmiyyəti, bir də erməni separatçılarınn rus sülhməramlılarının iştirakı ilə çıxardığı oyunları da sıfırlamalıdır. Sülhməramlılar indi də separatçıları Xocalıda layihələr həyata keçirmək üçün müşayiət edir. Xocalıdan olan deputat Elman Məmmədov hafta.az-a müsahibəsində mövcud vəziyyəti dəyərləndirib.*

***- Elman müəllim, bu günlərdə separatçılar Xocalıda müxtəlif "su layihələri"nin icrasına start verib. Bu məsələdə onları rus hərbçiləri müşayiət edirlər... Biz erməni separatçılarının çıxarılmasını gözlədiyimiz halda, ermənilər suvarma işləri ilə Xocalıda nəyə nail olmağa çalışır?***

-Bu gün sülhməramlı kimi Qarabağda olan Rusiya hərbi kontingentinə heç kəs o adı verməyib. Onlar özləri-özlərinə "sülhməramlı" deyir. Rusiya hərbi kontingentinin Azərbaycan ərazilərinə daxil olmasının məqsədi elə gəldiyi gündən aydın olub. Onların məqsədi Azərbaycanın Qarabağ ərazisində 1991-ci ilin sentyabrında yaradılmış cinayətkar, separatçı, terrorçu "Artsax-Dağlıq Qarabağ" adlanan qurumu himayə edib saxlamaqdan ibarətdir. "Artsax" adlanan o qondarma qurumu müdafiə edib silahlı qüvvələrini təmin eləməyə çalışıblar. Gəldikləri gündən öhdələrinə götürdükləri hər vəzifəni yüksək səviyyədə icra edirlər. Yəni "sülhməramlılar"ın Qarabağa gəlmə məqsədi 2020-ci il tarixdə Rusiya, Azərbaycan, Ermənistan rəsmilərinin imzaladığı 10 Noyabr sazişində tamamilə başqa cür göstərilib. Amma onlar sənəddə göstərilən bəndlərin icrası ilə məşğul deyillər. Azərbaycanın ərazi bütövlüyünə xələl gətirməyə, qanunlarını pozmağa, Azərbaycan ərazilərində uzun illər kök salmış separatçıları, qeyri-qanuni erməni hərbi birləşmələri qorumaqla məşğuldurlar. Azərbaycan dövlətinin rəhbərliyi sühməramlıların özbaşına davranışlarına qəti etiraz edir, amma yenə də yanlış hərəkətlərini davam etdirirlər. Sülhməramlılar üçtərəfli sazişə əsasən ölkə daxilində erməni silahlılarını ərazidən çıxarılmalı idilər. Amma nəinki silahlılar ərazidən çıxarılmır, əksinə, onlara müxtəlif səpkili dəstəklərin verildiyini müşahidə edirik. Bu gün də müşahidə edirik ki, sülhməramlılar həmin Arayik Arutunyan kimi cinayətkarların təhlükəsizliyini təmin edir. Mən o kəndlərin hamısın qarış-qarış tanıyıram. Ermənilərin vəsaiti yoxdur ki, orada nəsə iş görsünlər. Kəndlər salsınlar, su anbarları tiksinlər. Bütün bu işləri rus sülhməramlıları onlar üçün görür. Bu, birbaşa Azərbaycan qanunlarına qarşı hərəkətdir. Birbaşa Azərbaycanın ərazi bütövlüyünə qarşı hörmətsizlik, açıq-aşkar qanunlarımıza qarşı meydan sulamaqdır. Ona görə də Azərbaycan separatçı, cinayətkar qurumu məhv etmək, ərazisindən çıxarmaq, cinayətkarları cəzalandırmaq üçün gecikmədən tədbirlər görməlidir. Təmizlənmə üçün antiterror əməliyyatlarına başlanmalıdır. Onları himayə edən, birikdə fəaliyyət göstərən Rusiya hərbi kontingentinin də Azərbaycan ərazisindən çıxarılması tələbi qoyulmalıdır.

***- Erməni cinayətkarlarının, separatçılarının Xocalıda "Artsaxda 100 ev"adlı sərsəm layihələri də həm xocalılıları, eləcə də Azərbaycan ictimaiyyətinin qəzəbinə səbəb olur...***

- Unutmayaq ki, 1992-ci ildə Xocalıda soyqırımını 366-cı motoatıcı alay törətmişdi. İndi özünü sülhməramlı adlandıran bu hərbi kontingent də artıq "367" alay rolunu oynayır və gəlib Xocalıda kilsə tikdirir. Üstəlik, dədə-babalarının heykəllərini qoydular, ordan-burdan qaçıb-gələn erməniləri tutub gətirib Xocalı ərazisində evlər tikib yerləşdirirlər. Buna görə də bunların sülhməramlılığı "erməni məramlılığı"na çevrilib.

Mənim bir qədər əvvəl dediyim işlər həyata keçirilməlidir. Sülhməramlıların məxsus olduğu Rusiya özü razı olar ki, onun ərazisində tanınmamış separatçı qurum, cinayətkar dəstələr mövcud olsun?! Və yaxud ərazisində 30 il müddət ərzində fəaliyyət göstərsin?! Təbii ki, dözməz.

Şimali Qafqazda minlərlə insanın qırılmasını gördük. Rusiya onun adını belə qoydu ki, antiterror əməliyyatları keçirir. Biz həqiqətən də torpaqlarımızda işğal siyasəti yürüdən Ermənistan silahlı qüvvələrinə qarşı beynəlxalq hüquqa, Konstitusiyamıza əsaslanıb ərazilərimizi terrorçulardan təmizləmək üçün tədbirlər həyata keçirməliyik.

Belə xəbərlər ictimaiyyətdə narahatlıqlar yaradır. Mən tam əminliklə deyirəm ki, 44 gün ərzində ərazilərimizi düşməndən təmizləyib qələbə çalan Azərbaycan Ordusu az miqdarda qalmış erməni tör-töküntülərini çox qısa müddətdə yox etməyə qadirdir. Bizim ərazilərimizin 20 faizi işğal olunmuşdu. Bu gün, təxminən, 3 min kvadratkilometrə yaxın çox az hissədə separatçılar qalır. Yaxın zamanlarda onlar da axırıncı nəfərinədək Azərbaycan ərazilərindən təmizlənəcəklər. Sadəcə olaraq, cənab Prezidentimiz bunu bu yaxınlarda keçirilən Qoşulmama Hərəkatının tədbirində də dedi, ondanəvvəlki çıxışlarında da bəyan etmişdi. Prezident bildirmişdi ki, biz yenidən müharibənin alovlanmasının tərəfdarı deyilik. İstəyirik ki, müharibədən sonra imzalanmış üçtərəfli sənədlər əsasında, həm Rusiya, həm də Avropa İttifaqı müstəvsində keçirilmiş görüşlərdə qəbul olunmuş qərarlar sülh yolu ilə öz həllini tapsın. Görünür ki, Ermənistan öhdəliklərə əməl etmək istəmir. Düşünürəm ki, Rusiya sülhməramlılarının iştirakı ilə davam edən erməni fironluğu uzun çəkməyəcək.

> *"Zəngəzur dəhlizi yoxdursa, Laçın dəhlizi də olmayacaq*

> *Erməni sözü ilə sülh sözü bir-biri ilə 180 dərəcə əks-qütblərdə dayanır*

Cənab Prezident, Ali Baş Komandanımızın rəhbərliyi ilə işlər görüləcək və ərazilərimiz bu separatçılardan təmizlənəcək. Azərbaycan Ordusu özünün mövcud olan gücündən istifadə edib əraziləri separatçılardan təmizləyəcək.

***- Elman müəllim, elə bu günlərdə erməni mediası xəbər yaydı ki, Amerika Erməni Milli Komitəsinin (ANCA) nümayəndə heyəti Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisinə səfər edib, orada özünü "Dağlıq Qarabağın xarici işlər naziri" adlandıran Babayanla görüşlər keçirib və daha nələr. Əlbəttə ki, sual olunur: erməni diasporunun nümayəndələri Laçın dəhlizindən necə keçiblər və niyə keçməlidirlər?***

- Rusiya hərbi kontingenti "Laçın" dəhlizində hərəkətin təhlükəsizliyinə təminat vermək vəzifəsini icra etməlidirlər. Azərbaycanın sərhədçisi vəzifəsi onlara həvalə olunmayıb. Onlar Ermənistanın sərhədçiləri olublar və bu gün də sərhədlərini Rusiya əsgərləri qoruyurlar. Azərbaycanın sərhədini öz sərhədçisi qorumalıdır. Həmin "Laçın dəhlizi" deyilən yerdə də birincisi, Azərbaycan sərhəd buraxılış məntəqəsi olmalıdır və Azərbaycan sərhədçisi orada dayanmalıdır. İkincisi, əgər müharibənin qurtarmasndan 2 ilə yaxın vaxt keçirsə və bu günə qədər Zəngəzur dəhlizi yoxdursa, niyə Laçın dəhlizi olmalıdır?! Birdəfəlik bu şərti qoyub Laçın dəhlizini bağlamaq səlahiyyətinə malikik. Xarici ölkə nümayəndələrinin Rusiya sülhməramlılarınn icazəsi, müşayiəti ilə Qarabağa girişi birinci dəfə deyil. Bu, Azərbaycan ərazi bütövlüyünün kobud surətdə pozulması deməkdir. ABŞ, Rusiya, Fransanın nə deməsinin bizim üçün o qədər də əhəmiyyəti olmamalıdır. Onlara bir sualla müraciət etmək olar: siz belə demokratiyadan, hüquqdan, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığından, sərhədlərin toxunulmazlığından danışırsınızsa, niyə bu qanunları özünüz pozursunuz?! Siz özünüz razı olarsınızmı ki, sizin ərazilərinizdə tanınmamış separatçı qurum fəaliyyət göstərsin?! Təbii ki, onların bu sala cavabı yoxdur. O zaman niyə bu vəziyyəti bizə rəva görürsünüz?!

Burada sadə bir məntiq var: əgər Ermənistan və himayədarları Azərbaycan ərazisində kompakt yaşayan, haradasa 25-30 min ermənının Ermənistanla təhlükəsizlik hərəkətinin təmin olunması üçün canfəşanlıq edir və buna şərait yaradılmasını tələb edirlərsə, onda yarım milyona qədər Naxçıvan əhalisinin Azərbaycanla quru yolla birbaşa əlaqəsinin yaradılması üçün niyə narahat olmurlar? Demək, bu 20 min ermənının qayğısına qalıb onların Laçın dəhlizi ilə rahat gedişini-gəlişini təmin etmək olar, amma Azərbaycan öz ərazilərində Zəngəzur dəhlizi ilə hərəkət edə bilməzlər?! Bu, hansı kitabda, hansı qanunda yazılıb?! Buna görə də birmənalı olaraq, qəti mövqe ortaya qoyulmalıdır ki, Zəngəzur dəhlizi yoxdursa, Laçın dəhlizi də olmayacaq.

***- Elman müəllim, bu günlərdə Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu da Zəngəzur dəhlizinin açılmasını, sərhədlərin müəyyənləşməsini, kommunikasiyaların açılması və münasibətlərin normallaşması zərurətini qeyd edib. Eyni münasibət Aİ-nin prezidenti Şarl Mişel tərəfindən sərgilənib. Bir sözlə, beynəlxalq aləmin Azərbaycanın haqlı savaşı ilə bağlı hazırkı mövqeyi nədir?***

- Fərqli münasibətlər olacaq. Dünya nizamında belə münasibətlər olub. O münasibətləri sərgiləyənlər də vəziyyəti normallaşdırmaq üçün yox, aranı qarışdırmaq üçün edirlər. Digər tərəfdən, belə vəziyyət yaranıb: Ermənistan Azərbaycan torpaqlarını 30 il işğal altında saxlayıb. Həmin o ATƏT-in Minsk Qrupu, BMT-də dediyiniz Almaniya və digər Avropa dövlətləri də yalnız bu fikirləri səsləndirirdilər: "İşğala son qoymaq lazımdır, Ermənistan işğal edilmiş əraziləri təmizləməlidir". Erməni işğalçıları Azərbayan ərazilərindən çıxdımı? Xeyr. Yəni bu söz, fikir deyilirdi, ancaq bir əməl, qəti hərəkət yox idi. Axırda Azərbaycan Ordusu bunların 30 ildə edə bilmədiyini 44 gün ərzində etdi. İndi də müharibədən sonra belə oyunlar başlayıb. Moskva bir tərəfdən, Qərb, Amerika bir tərəfdən. Hə, arada Ermənistana məsləhət görülür ki, sərhədlərin delimitasiyası, demorkasiyası olsun, sülh sazişi imzalansın, Zəngəzur dəhlizi açılsın kimi məsləhətlər verirlər.

Yəni söz deyən, münasibət bildirən çoxdur, ancaq erməni qanmazlarını belə rahatlıqla başa salmaq çətindir. Erməni sözü ilə sülh sözü bir-biri ilə 180 dərəcə əks-qütblərdə dayanır. Onları başa salmaq üçün Azərbaycan əsgəri yumruğu onların başına vurmalıdır.

*✍ Tahirə Qafarlı*

Müsahib

***A**şqabadda Xəzəryanı ölkələrin dövlət başçılarının VI sammiti keçirildi. Eyni tarixdə isə NATO dövlət başçıları bir araya gəldi. Ukrayna savaşının dünyanı müxtəlif qütblərə böldüyü bir vaxtda Xəzəryanı dövlətlərin yenidən bir araya gəlməsi müxtəlif müzakirələrə yol açıb. Hafta.az-a müsahibə verən Türkiyə Qafqaz Araşdırmaları Mərkəzinin rəhbəri Hasan Oktay maraqlı məqamlara diqqət çəkib.*



**Hasan Oktay,**
Türkiyə Qafqaz Araşdırmaları Mərkəzinin rəhbəri

# Xəzərin hüquqi statusu haqqında müqavilə qüvvəyə minməyib

***- Necə hesab edirsiniz, Aşqabadda keçirilən Xəzəryanı dövlətlərin VI Zirvəsi və orada qəbul olunan sənədlər nə dərəcədə real və hüquqi statusa malikdir?***

- Bu Sammitdə Xəzərin hüquqi statusu haqqında müqavilənin qüvvəyə minməsinin vacibliyi vurğulansa da, İran hələ də Xəzərin hüquqi statusu haqqında müqaviləni ratifikasiya etməyib. Xəzərin hüquqi statusu haqqında Müqaviləyə əsasən, sənədin qüvvəyə minməsi üçün bütün iştirakçı dövlətlər onu ratifikasiya etməlidirlər.

Buna görə də digər dövlətlər Müqaviləni ratifikasiya etsə də, İran onu ratifikasiya etmədiyi üçün Müqavilə hələ də qüvvədə deyil. Üstəlik, bu sammitlə Rusiya-Ukrayna müharibəsinə görə ağır sanksiyalarla üzləşən Kreml Xəzər sahilindəki dövlətlər sayəsində yeni bazarlar axtarışındadır. Rusiya Xəzər vasitəsilə Avropaya uduzmadı. Ona görə də Rusiya Aşqabad Sammiti ilə həm Qərbə qarşı tək olmadığını göstərmək istəyir.

***- NATO Sammitində Rusiya və Çin təhlükə olaraq vurğulandı...***

- NATO Sammitində Rusiya və Çinin təhlükə kimi tanınması Azərbaycan üçün təhlükə yaratmayacaq. Azərbaycan Ukrayna-Rusiya müharibəsinin ilk anlarından Avropaya təbii qaz və neft nəql etməyə hazır olduğunu bəyan edib. Rusiya üçün kritik situasiya olan bu həssas məqam Qərbdə də diqqətlə izlənilir və ona görə də Avropa və ABŞ Azərbaycanın Rusiyaya qarşı açıq mövqe tutmasını istəmir. Avropa və ABŞ üçün Rusiya təbii qazına alternativ olaraq təbii qazın verilməsi vacibdir. Azərbaycanın da bu ehtiyacın müəyyən hissəsini ödəmək imkanı var.

Azərbaycan üçün problem yarada biləcək sənəd Azərbaycanla Rusiya arasında imzalanmış "Moskva Bəyannaməsi"dir. Bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında Moskvada imzalanmış "Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamə"nin 28-ci maddəsinə istinad etmək məqsədəuyğun olardı.

22 fevral 2022-ci il. Müvafiq olaraq, "Tərəflər qarşılıqlı ödənişlərdə milli valyutaların istifadəsinə, ödəniş sistemlərinin uyğunluğuna, o cümlədən bank kartlarından birgə istifadəyə və iki ölkənin bankları arasında birbaşa əlaqələrin inkişafına kömək edəcəklər". Bu maddə Rusiya pullarının heç bir sanksiyaya məruz qalmadan Azərbaycan bankları vasitəsilə xaricə getməsinə icazə verə bilər.

Rusiyanın Azərbaycana münasibətini davam edən Rusiya-Ukrayna müharibəsində Azərbaycanın şimal qonşusuna münasibəti müəyyən edəcək. Daha aydın desək, Rusiya-Ukrayna müharibəsində Azərbaycan Rusiyaya qarşı mövqe tutsa, Rusiya Dağlıq Qarabağdakı faktiki vəziyyəti rəsmiləşdirməyə çalışacaq, Azərbaycanı çətin vəziyyətə salmaq istəyəcək. Azərbaycanın İranla münasibətlərində müəyyənedici amil İsrail faktorudur. İsrailin Azərbaycana yaxınlığı İranı Azərbaycana qarşı daim gərgin vəziyyətdə saxlayır. Ona görə də Aşqabad sammiti İranın Azərbaycana münasibətində həlledici deyil.

Aşqabadda əldə olunan nəticələr Avropanın Azərbaycana münasibətinə mənfi təsir göstərməyəcək, çünki Rusiya və İranın Azərbaycana münasibəti Avropa baxımından diqqətlə izlənilir və hadisələr buna uyğun qiymətləndirilir. Yuxarıda qeyd etdiyim kimi, Rusiya-Ukrayna müharibəsi səbəbindən Avropanın Rusiyadan kənarda alternativ təbii qaz bazarına ehtiyacı var. Azərbaycan bu ehtiyacı qismən ödəyə biləcək. Ona görə də Avropanın enerji ehtiyacı Azərbaycanın Avropaya inteqrasiyasına qismən kömək edəcək. Bu vəziyyət həm də Rusiya ilə sıx bağlıdır.

***- Rusiyanın bölgədəki gücü regionda nə qədər artacaq?***

- Aşqabad Sammiti Rusiyanın regionda gücünü artırmaqdansa, hələ də təsirinin azalmadığını göstərmək məqsədi daşıyır. Rusiya bu Sammitlə region dövlətləri üzərində təsirli olduğunu göstərməyə çalışır. Rusiyanın yeni hərbi ittifaq yaratması o qədər də real görünmür. Üstəlik, artıq Rusiyanın rəhbərliyi altında mövcud olan Kollektiv Təhlükəsizlik Təşkilatı da özünü sübut edə bilmədi. Bunlardan əlavə, tədricən Qərbə inteqrasiya etmək istəyən Azərbaycan və Qazaxıstan Rusiyanın belə bir addımına dəstək verməyəcək.

***- Xəzər ölkələrinin qəbul etdiyi 7 bəndin 3-ü hərbi əməkdaşlıqla bağlıdır. 5 ölkə ilə bağlanan təhlükəsizlik sənədləri özündə nəyi ehtiva edir?***

- Əslində, İrandan başqa 4 sahilyanı dövlət arasında hərbi əməkdaşlıq haqqında ayrıca sazişlər var. Rusiya və Qazaxıstan Kollektiv Təhlükəsizlik Təşkilatının Müqaviləsinin üzvləridir. Təhlükəsizlik qaydaları Xəzərin hüquqi statusu haqqında Müqavilənin təbii nəticəsidir. Həmçinin Azərbaycan müstəqil və suveren dövlətdir. Müstəqillik əldə etdikdən sonra istədiyi dövlətlə təhlükəsizliklə bağlı müqavilələr bağlayıb. Məsələn, Azərbaycan Rusiya, İsrail və Türkiyədən silah alır. Bu kontekstdə İranda Azərbaycana faydalı ola biləcək silah varsa, İrandan da silah alacaq.

> *"Aşqabadda əldə olunan nəticələr Avropanın Azərbaycana münasibətinə mənfi təsir göstərməyəcək*

Başqa sözlə, bu, Xəzəryanı dövlətlərin illərdir ənənəvi olaraq təşkil etdiyi sammit görüşlərindən biridir. Ona görə də Azərbaycanın bu görüşdə iştirak etməməsi mənasız və tutarsız olardı. Bundan əlavə, bu Zirvə görüşü Azərbaycanın əleyhinə olacaq nəticə ilə bitmədi.

Azərbaycanla Türkiyə arasında münasibətləri tənzimləyən ən mühüm sənəd Şuşa Bəyannaməsidir. Şuşa bəyannaməsi ilə hər iki dövlət bir-birini "müttəfiq" adlandırdı. Beynəlxalq münasibətlərdə bu nadir haldır. Beynəlxalq münasibətlərdə dövlətlər arasında münasibətlərin səviyyəsi "strateji tərəf" olmaqdan o yana keçmir. Ona görə də Şuşa Bəyannaməsi iki ölkə arasında münasibətləri əvvəlkindən daha da irəli aparan və hər iki dövlət tərəfindən ratifikasiya olunduqdan sonra qüvvəyə minən beynəlxalq müqavilədir. Rusiya Şuşa bəyannaməsinin hər iki ölkə tərəfindən imzalanmasından 10 gün sonra Azərbaycanın Moskva bəyannaməsini imzalamasına nail olmaqla, Şuşa bəyannaməsini təsirsiz hala gətirməyə çalışdı.

Türkiyə Xəzərvə sahilyanı dövlət deyil. Bu, Türkiyənin bölgədə hərbi mövcudluğuna maneə deyil. Yəni Xəzərin statusu haqqında müqavilə hələ qüvvəyə minməyib. Bundan başqa, Xəzər sahillərindən Azərbaycana təhlükə yaranarsa, beynəlxalq hüququn ən mühüm prinsiplərindən biri olan "xüsusi qayda ümumi qaydanı ləğv edir" prinsipinə uyğun olaraq, Şuşa Bəyannaməsində göstərilən özünümüdafiə hüququna uyğun olaraq Azərbaycan türk əsgərlərini çağıra biləcək.

*✍ Tahirə Qafarlı*

# 20 yaşlı Diasporla İş üzrə Dövlət Komitəsi

## Layihə

***Bu gün diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi məsələləri dövlət siyasətinin əsas prioritetlərindən sayılır. Hazırda diaspor quruculuğunda aparılan məqsədyönlü və geniş şaxəli dövlət siyasəti nəticəsində yeni hədəflər və məqsədlər müəyyənləşdirilib. İndi kəmiyyət və keyfiyyət baxımından yenilənmiş soydaşlarımıza yerli cəmiyyətlərə sıx inteqrasiya olunmaq, ictimai-siyasi və humanitar sahələrdə yaşadıqları ölkələrə töhfələr bəxş etmək, ictimaiyyət arasında nüfuz yiyəsinə çevrilməklə Azərbaycanın və azərbaycanlıların adını ucaltmaq kimi vacib tövsiyələr verilir. Bu istiqamətdə mütəşəkkil fəalliyyəti təmin etmək naminə müxtəlif ölkələrdə azərbaycanlıların Koordinasiya şuraları yaradılır, Azərbaycan Evləri təsis edilir. Xaricdə yaşayan elm, mədəniyyət, incəsənət xadimlərinin, gənclərin bir araya gətirilməsi üşün müxtəlif layihələr həyata keçirir. Mövzu ilə bağlı "Həftə içi" qəzetinin müsahibi "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri, Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi Mayisə Ağamirzəyevadır.***

***- Mayisə xanım, bu günlərdə Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 20 illiyi tamam oldu. Bu sahədə 20 illik fəaliyyəti necə qiymətləndirirsiniz?***

- Yaradılması ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan dogma Komitəmiz 20 il ərzində enişli-çıxışlı yollar keçərək, özünü doğruldub. Son illər ərzində isə dünya azərbaycanlılarının fəallığı diqqəti cəlb edir. Bu gün soydaşlarımızın mütəşəkkil şəkildə fəaliyyət göstərməsi məqsədilə yaradılan Koordinasiya şuraları, Azərbaycan evləri, həftəsonu Azərbaycan məktəbləri, gənclərdən ibarət müxtəlif platformalar və onlarla yeni yaranan diaspor təşkilatları Dövlət Komitəsinin son illərdəki uğurlu fəaliyyətinin nəticəsidir. Ağır pandemiya mərhələsində diaspor təşkilatlarının öz fəaliyyətini müxtəlif informasiya texnologiyaları vasitəsilə davam etdirməsi, Tovuz hadisələri, Vətən müharibəsi, postmüharibə dönəmində dünya azərbaycanlılarının bir araya gətirilməsi, birlik və həmrəylik nümayiş etdirməsi Komitənin həyata keçirdiyi peşəkar koordinasiya nəticəsində mümkün olub. Ən əsası, Dünya Azərbaycanlılarının V Qurultayının Şuşada keçirilməsi bu fəaliyyətin yüksək zirvələrindən biri hesab oluna bilər. "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis olunması, təşəkkürnamələr dövlətimizin diasporumuza göstərdiyi diqqətin və həssas münasibətin təzahürüdür. Gələcəkdə Komitə ilə diaspor təşkilatlarının əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsini arzulayıram. Çünki gücümüz birliyimizdədir.



**Mayisə Ağamirzəyeva,**
"Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri

***- Bu gün, diasporumuzun mütəşəkkil qüvvəyə çevrildiyini söyləyə bilərikmi? Sizin bununla bağlı müşahidələriniz nədən ibarətdir?***

- Hesab edirəm ki, indi öz fəaliyyətini hərtərəfli quran güclü Azərbaycan diasporu formalaşmağa başlayıb. Tovuz hadisələrindən başlayaraq 44 günlük Vətən müharibəsi dövründə təkcə yaşadığım ölkəni təmsil edən birisi kimi deyə bilərəm ki, Hollandiyada yaşayan azərbaycanlılar həqiqətən də "Qarabağ Azərbaycandır! şüarı ilə birləşdilər. Yəni ürəyi Vətənlə döyünən vətəndaşlarımız əllərinə bayrağımızı alaraq istər Tovuz hadisələri, istərsə də Gəncə hadisələri zamanı keçirdiyimiz izdihamlı mitinqə böyük həvəslə gəlmişdilər. 44 günlük Vətən müharibəsi hamımızı daha da sıx birləşdirdi. O vaxtı hamı bir-birinə durmadan zəng edirdi, əlaqə saxlayırdı, Azərbaycan həqiqətlərini çatdırmaq məqsədilə insanlar müvafiq təşkilatlara məktublar hazırlayıb göndərirdilər. Təbii ki, bu məsələdə diaspor təşkilatlarının üzərinə olduqca böyük məsuliyyət düşürdü. Bu işlərdə Azərbaycanlıların Koordinasiya Şuralarının yaradılmasının çox böyük əhəmiyyəti oldu. Məsələn, mənim yaşadığım Hollandiyada fəaliyyət göstərən bütün təşkilatlar istər sosial media, istərsə də telefon vasitəsilə səfərbər oldular və müvafiq təşkilatlara məlumatlar göndərildi. Bütün bunlar Azərbaycan diasporunun ayağa qalxmasından, azərbaycanlıların birləşməyindən xəbər verirdi. Bu gün də yenə vurğuladığım kimi, bizim müharibəmiz bitsə də, mübarizəmiz bitməyib. Bilirsiniz ki, aprel ayında Şuşada Dünya Azərbaycanlılarının V Qurultayı keçirildi və mən də orada idim. Həmin tədbiri digərlərindən fərqləndirən onun Zəfər Qurultayı olması, Şuşada keçirilməsi idi. Bu Qurultay yeni reallıqlar şəraitində Azərbaycan diasporunun fəaliyyəti üçün yol xəritəsi oldu. Prezidentimizin də tövsiyyəsi əsasında indi daha çox lobbiçiliyi inkişaf etdirməliyik.

Mübarizəmiz davam etdiyi üçün burada yetişən, böyüyən gəncləri daha çox vətənpərvər, milli ruhda böyütməliyik. Bunun üçün daha çox Azərbaycan məktəbləri açılmalıdır. Məsələn, sədri olduğum "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin nəzdində həftəsonu məktəbi fəaliyyət göstərirdi. Amma həm pandemiya, həm də digər səbəblərdən həmin məktəbin fəaliyyətini dayandırmaq məcburiyyətində qaldıq. Başqa təşkilatların nəzdində təbii ki, həftəsonu Azərbaycan məktəbləri fəaliyyət göstərir.

***- Xaricdə yaşayan gənclərimiz bu prosesdə nə dərəcədə aktivdir? Onlar sizə dəstək verirlərmi?***

- Təbii ki, biz onların dəstəyini hər zaman görürük. Burada gənclər olduqca aktivdirlər və ürəyi Vətənlə döyünən kifayət qədər gənclərimiz var. Bu da onlara tərbiyə verən azərbaycanlı ailələrdən irəli gəlir. Uşaq ailənin güzgüsüdür. Biz onları necə öyrədiriksə, ailədə necə davranırıqsa onlar da o yöndə inkişaf edirlər. Müharibə zamanı həmin gənclər bir gün olsun dayanmadılar, sosial şəbəkədə olduqca aktivlik nümayiş etdirdilər. Hazırda da onlardan aktiv olan gənclər var.

***- Bu gün Azərbaycan diasporunun digər ölkələrin diasporları ilə əməkdaşlığı hansı səviyyədədir?***

- Bu gün Azərbaycan və Türkiyə diasporu birlikdə hərəkət edir. Bu Vətən Müharibəsi dövründə də özünü bariz şəkildə göstərdi. Yaşadığımız ölkədə digər ölkələrin diasporları ilə əlaqələrimiz var. Sizə desəm ki, bu əlaqələr çox güclüdür, bu doğru olmaz. Bu istiqamətdə münasibətləri qurmaq əslində asan deyil. Ancaq bu münasibətləri quran təşkilatlarımız var. Biz özümüz hollandlarla bir neçə tədbir təşkil etmişik. Təbii ki, bu istiqamətdə əlaqələri genişləndirmək olduqca vacibdir. Xüsusilə müharibədən əziyyət çəkən ölkələrin nümayəndələri ilə birlikdə hərəkət etmək daha faydalı olar. Bundan sonra əsas bu xətt üzrə də iş görmək lazımdır. Burada bir məsələ var ki, bununla bağlı təkcə Azərbaycan tərəfə yüklənmək doğru olmaz. Digər ölkələrdən də bu yöndə təşəbbüs yoxdur.

***- Avropada erməni lobbisi həmişə "fəal" olub, mütəmadi olaraq Azərbaycana qarşı müxtəlif qarayaxma kampaniyası aparıb. Azərbaycanın parlaq Qələbəsindən sonra diaspor cəbhəsində demək olar ki, mövqelərimiz gücləndi və qalib xalqın diasporu reallığını yaratdı. Bu gün Avropa erməniləri yenə də öz ampulasındadır, yoxsa, vəziyyət dəyişib?***

- Avropada erməni lobbisi fəaldır. Bu da onların yaşadıqları ölkələrdə eyni dinə mənsub olmasından irəli gəlir. Onlar daha çox kilsələrlə iş görürlər. Özlərini dilənçi günə qoyaraq iş aparırlar. Onların canına müharibə vaxtından çox qorxu düşüb. Məsələn, müharibə vaxtı hər gün parlamentin qarşısında dayanırdılar, onlar əsasən də qadınları qabağa verirdilər. Eyni zamanda, şəhərlərarası magistralla çıxıb insanların qarşısını kəsirdilər ki, qoymayın bizi qırırlar. Yəni özlərini rəzil günə qoyurdular. Təbii ki, bunu da bizim gücümüzdən qorxduqları üçün edirdilər və davamlı olaraq diasporumuza qara yaxmaqla məşgul idilər. Elə məni də Vətən müharibə dövründə işlədiyim xəstəxanaya şikayət etmişdilər. Mənim sosial media hesabımdan şəkilimi çəkib xəstəxananın direktorlar şurasına göndərmişdilər ki, güya mən onlar üçün təhlükəli insanam. Heç bir şey əldə edə bilmədilər. Xəstəxana mənim sosial media səhifəmə daxil olub görmüşdü ki, heç bir yerdə xəstəxananın adından istifadə etməmişəm, sadəcə öz fikrimi bölüşmüşəm. Əksinə, vətənpərvərliyimə görə mənə təşəkkür etdilər. Digər tərəfdən, keçən ilin sonundan burada çap olunan bir jurnalla müqavilə bağlamışam. Həmin jurnalda 2 il müddətində azərbaycanlıların müsahibəsi yayımlanacaq. Burada yaşayan 6 azərbaycanlının müsahibəsi çap olunub. Yəni həmin jurnalda Azərbaycanla bağlı çox geniş və ətraflı yazı yayımlanır. Bu kimi işlərimiz çoxdur, hamısı da ermənilərin hiddətinə səbəb olur, gücümüzdən qorxurlar. Azərbaycanın "dəmir yumruq" gücünü artıq bütün ölkələr, eləcə də bizim yaşadığımız Hollandiyada görürlər.

***✍ Sevinc***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

"
*Bu gün Azərbaycan və Türkiyə diasporu birlikdə hərəkət edir*

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ "Milan"ın hücumçusu Zlatan İbrahimoviç klubla yeni müqavilə imzalayıb. Bildirilib ki, karyerasını bitirmək fikrində olmayan 40 yaşlı forvard klubla danışıqları yekunlaşdırıb. "Milan" yaxın günlərdə onunla yeni 1 illik saziş imzalandığını açıqlayacaq. İsveçli superulduzun maaşı 1 milyon funt sterlinqə qədər azaldılıb. O, həmçinin əlavə bonuslar da qazana bilər.

■ Sürücülük vəsiqəsində əks olunan məlumatlar elektron qaydada İcbari Sığorta Bürosunun informasiya sisteminə ötürüləcək. Bu, "İcbari sığortalar haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. Başqa sözlə, müvafiq icra hakimiyyəti orqanı öz elektron informasiya ehtiyatında mövcud olan nəqliyyat vasitəsi üzrə etibarnamədə və sürücülük vəsiqəsində əks olunan məlumatların İcbari Sığorta Bürosunun elektron informasiya sisteminə ötürülməsini təmin etməlidir.



■ Rüfət Cahangir oğlu Hacıəlibəyov səhiyyə naziri Teymur Musayevin yeni müşaviri təyin edilib. Səhiyyə Nazirliyindən verilən xəbərə görə, Rüfət Hacıəlibəyov səhiyyə nazirin müvafiq əmrinə əsasən, səhiyyənin rəqəmsallaşdırılması üzrə müşavir vəzifəsinə təyin olunub. Rüfət Hacıəlibəyov HP, Microsoft, SAP beynəlxalq şirkətlərində rəhbər vəzifələrdə çalışıb və informasiya texnologiyaları sahəsində 25 illik davamlı təcrübəyə malikdir.

■ "Azərbaycanda narkotik maddə asılılığı ilə bağlı mütəxəssis qıtlığı var". Bunu Respublika Narkoloji Mərkəzinin psixoloqu Ramin Allahverdiyev deyib. O bildirib ki, bəzi məktəblərdə blogerlər və keçmiş istifadəçilər narkotik maddələrlə bağlı maarifləndirici tədbirlər keçirirlər: "Bu, çox həssas məsələdir. Fikrimcə, heç bir şagirdə iynə, narkotik maddə adı, deformasiya olmuş sümük, bədən göstərməyin faydası yoxdur. Biz şəxsin daxili, xarici resurslarını aktivləşdirməliyik. İdmana, kitaba meyllilik yaradılmalıdır".

# Rusiya-Ukrayna savaşında Belarus müəmması

***"Belarusda artan hərbi fəallıq Ukrayna hakimiyyətini təşvişə salır və sərhədçilərimizi müdafiəyə hazırlaşmağa vadar edir. Belarus Respublikasının özündə Ukraynanı işğal etməyi planlaşdırmadıqlarını iddia edirlər... Çox güman ki, belədir. Putin Lukaşenkonun əli ilə Ukraynaya təhlükə görüntüsü yarada və Qərbin diqqətini yayındıraraq başqa ölkəyə hücum etməyi planlaşdıra bilər". Tanınmış Ukrayna jurnalisti Boqdan Prixodko Rusiyanın hədəfi altında kimin ola biləcəyini və Belarusun haraya hücum hazırladığını anlamağa çalışıb.***

## Təhlil



Bu məsələ Ukrayna mətbuatında geniş təhlil olunmaqdadır. Bəs həqiqətən hərbi əməliyyatların miqyası genişlənərək digər dövlətləri də əhatə edə bilərmi?

**Boqdan Prixodko yazır:**

"Belarusun Ukraynaya işğala hazırlaşması faktı müharibənin dörd ayı ərzində rəsmilər, hərbçilər və media tərəfindən bildirilib. İyunun əvvəlində Rusiya Federasiyasının silahlı qüvvələrinin Belarusda, Ukrayna ilə sərhədboyu "İsgəndər-M" kompleksi, "Pantsir-S1", "S-400" zenit-raket kompleksləri və operativ-taktiki aviasiya yerləşdirilməsindən sonra vəziyyət mümkün qədər gərginləşdi. Respublikanın öz qoşunları da fəallaşdı. Ukrayna ilə sərhədə hərbi texnika kolonnaları gəlib və Belarus Müdafiə Nazirliyi 20 min əsgər üçün tanınma nişanlarının alınmasını təşkil edib".

İyunun 22-də Belarusun Ukrayna ilə həmsərhəd Qomel vilayətində hərbi komissarlıqlarla planlaşdırıldığı iddia edilən səfərbərlik təlimləri başlayıb. Xatırladaq ki, təlimlər çox vaxt məhz hərbi əməliyyatların başlamasından dərhal əvvəl olur. Rusiya da Ukraynaya hərbi "təlim"lərindən dərhal sonra hücum edib.

Bundan əlavə, iyunun 28-də Jlobin rayonunda ərazi qoşunlarına "ərazi müdafiə obyektlərinin mühafizəsini və müdafiəsini təşkil etməyə, hərbi vəziyyət tədbirlərini həyata keçirməyə, həmçinin təxribat və kəşfiyyat qruplarına qarşı mübarizəyə" hərbi toplantılar başlayıb. Qeyd edək ki, Belarus Ordusunda əvvəllər ərazi qoşunları yox idi. Prezident Aleksandr Lukaşenkonun sözlərinə görə, ərazi qoşunlarının yaradılması ideyası hələ müharibədən əvvəl NATO-nun Polşa, Litva və Latviyada təzyiqi nəticəsində yaranıb. Hərbi təlim kimi, yeni qoşun qrupunun formalaşdırılması da Belarusun Ukrayna ilə müharibədə iştirak etməyə hazırlaşdığını göstərə bilər.

Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurası katibinin keçmiş müavini Sergey Krivonos "RBK-Ukrayna"ya müsahibəsində ehtimal edib ki, Lukaşenkonun qoşunları müstəqil şəkildə iki istiqamətdə hücuma keçə bilər.

"Birbaşa Volın və Roven istiqamətlərində onlar bunu öz əllərində olan qruplaşmalar və hissələr hesabına edə bilərlər". Ukrayna kəşfiyyatının məlumatına görə, Belarus sərhədyanı Brest və Qomel rayonlarında 7 batalyon saxlayır ki, bu da 3,5-4 min əsgər deməkdir.

■ **Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Aleksey Danilov hesab edir ki, Ukraynaya effektiv müdaxilə üçün bu qədər sayda hərbçi kifayət etmir. Eyni zamanda o qeyd edib ki, Belarus ordusu 60 minə yaxın hərbçidən ibarətdir və hakimiyyət ordunu daha 20 min nəfər artırmaq istəyir.**

"Müdafiə Nazirliyi istisna etmir ki, ruslar da tez bir zamanda Belarusa əlavə ehtiyatlar ötürə və hücuma hazırlaya biləcəklər", - deyə Danilov bildirib. Bəs Belarusdan Ukraynaya təhlükə süni şəkildə, ilk növbədə, Qərbin diqqətini yayındırmaq üçün yaradılırsa? Bütün dünya ictimaiyyəti Ukrayna sərhədində baş verənləri izlədiyi bir vaxtda fərqli istiqamətdə zərbə endirilə bilər. Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Patruşevin Litva xalqına qarşı son hədələrini və Litvanın Rusiya yüklərinin Kalininqrada tranzitini dayandırmasından sonra Kremlin digər yüksək rəsmilərinin sərt cavab tədbirləri ilə bağlı mübahisəli bəyanatlarını nəzərə alsaq, Vilnüs təhdid altındadır. Rusiya Federasiyası birdən-birə Kalininqrad vilayətində hərbi təlimlər keçirməyə başlayandan, Estoniyaya, qonşu Litvaya raket hücumlarını simulyasiya edəndən sonra Baltikyanı ölkənin havasından əsl müharibə iyi gəlməyə başladı.

■ **İyunun 24-də Litva Prezidenti Gitanas Nauseda "Politico" nəşrinə müsahibəsində bildirib ki, Rusiyanın Belarus ərazisindən yaratdığı təhlükəyə qarşı çıxmaq üçün NATO Baltikyanı ölkələrdə daha "görünən" mövcudluq yaratmalıdır.** Onun sözlərinə görə, qonşu Belarusda hərbi fəaliyyət Litvanı Rusiyanın sürətli hücumu qarşısında daha həssas edir və regionda təhlükəsizlik mexanizmlərinin dəyişdirilməsini tələb edir. "Yeni reallıq bizə reaksiya verməyə vaxt qoymur, çünki rus qoşunları asanlıqla sərhədimizə çox yaxın yerləşdirilə bilər və bu halda müdafiəni əlavə qüvvələrlə möhkəmləndirməyə vaxt olmayacaq", - Litva Prezidenti belə deyib. Gərginlik, həmçinin iyunun 27-də Litvanın dövlət qurumlarına və şirkətlərinə edilən kütləvi kiber-hücumlarla daha da artıb.

■ **Litva Milli Kibertəhlükəsizlik Mərkəzinin direktoru vəzifəsini icra edən Yonas Skardinskas "Litva, ehtimal ki, Rusiyadan gələn intensiv kiberhücuma məruz qalıb", - deyə bildirib.**

Litva Müdafiə Nazirliyi qeyd edib ki, onlar ən güclü "DDoS" hücumlarının öhdəsindən gələ bilib və təhlükəsiz Milli Məlumat Ötürmə Şəbəkəsinin xidmətləri bərpa edilib. Xatırladaq ki, Rusiyanın Ukraynaya müdaxiləsi ərəfəsində Ukraynanın dövlət və maliyyə qurumları da Rusiya Federasiyasından olan hakerlərin kütləvi hücumlarına məruz qalıb.

Baltikyanı rəsmilər NATO-dan əlavə qoşun, silah və hava hücumundan müdafiə sistemi tələb ediblər. Litvada NATO-nun döyüş qrupuna rəhbərlik edən Almaniya ölkənin müdafiəsinə töhfəsini artıracağını bəyan etsə də, Litvaya əlavə qoşun göndərməyə tələsmir. Bölmələr Almaniyada yerləşəcək və işğal halında həmin ölkəyə yollanacaqlar. Nausedanın fikrincə, indi ümumilikdə Baltikyanı ölkələr və xüsusən də Litva üçün ən vacib şey müttəfiqlərdən "Baltikyanıda daha aydın öncül mövcudluqlarıyla" bağlı aydın təminat almaqdır".

"Biz bu qoşunların daimi əsasda olmasında çox maraqlıyıq", - deyə Litva lideri vurğulayıb. ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays Rusiyanın hərbi təcavüzü halında Amerikanın Litvanı dəstəkləməyə hazır olduğunu bildirib və ABŞ-ın Şimali Atlantika Alyansının 5-ci maddəsinə sadiq qaldığını vurğulayıb. Həmin maddədə NATO üzvlərindən birinə hücumun alyansın bütün üzvlərinə hücum kimi anlaşıldığı qeyd olunur.

Lakin elə indi, Litvada NATO kontingentinin kifayət qədər məhdud olduğu və alyans rəsmilərinin onu necə gücləndirəcəyi barədə düşündüyü və prinsipcə, Rusiyanın qəfil hücumuna inanmadığı bir vaxtda Moskva qəfil zərbə endirə bilər. Axı gözlənilməzlik hərbi taktikanın əsas elementlərindən biridir ki, bu da məhdud resurslar və ciddi cavab tədbirləri riskləri ilə uğur əldə etməyə imkan verir.

■ **Belaruslu hərbi ekspert Yeqor Lebedok qeyd edir ki, gözlənilməzliyə nail olmağın yolları arasında məhz Belarus sərhədində baş verənləri qeyd etmək olar:**

- öz qoşunlarının hazırlığının artırılması və düşmənin hazırlığının azaldılması;
- niyyətlərini düşmən üçün mümkün qədər qeyri-müəyyən etmək.

Ekspert qeyd edir ki, düşmənin qeyri-müəyyənliyi gözlənilməz zərbəni "buraxmaq" şansını xeyli artırır. Diqqətin dağılmasından ötrü əlavə faktor kimi bir sıra siyasətçilərin və politoloqların Lukaşenkonun Putinə kömək etmək və hərbi münaqişələrə qarışmaq istəməməsi ilə bağlı açıqlamaları ola bilər.

Lebedokun qeyd etdiyi kimi, gözlənilməz zərbədən sonra NATO rus qoşunlarının və avropalı mülki əhalinin olduğu şəhərləri azad etməli olacaq. Bunu da mülki insanları öldürmədən etmək son dərəcə çətinlik yaradacaq.

"Mülki əhalinin öldürülməsi təhlükəsi hərbi əməliyyatlara və danışıqlara sövq etməkdə ciddi maneə törədən amil olacaq ki, bu da sonda Krımın nümunəsində olduğu kimi, Baltikyanı mövzusunu da daha yaxşı vaxtlara qədər formallığa çevirə bilər", - deyə ekspert izah edib. Bununla belə, hərbi ekspert Oleq Jdanov əmindir ki, Rusiya Litvaya hücum etsə, bunun nəticələri Kreml üçün ölümcül olacaq. "NATO dərhal müharibəyə qoşulacaq. İlk olaraq almanlar döyüşə girəcək, çünki Litvada AFR-nin tank taboru var. Yaxın gələcəkdə o, briqada sayına qədər artırıla bilər", - Jdanov belə deyib.

■ **Politoloq Vadim Karasev də Rusiyanın Litvaya hücumunun çətin ehtimal olunduğunu hesab edir. "Bu, NATO ilə birbaşa hərbi toqquşmadır və bu, dünya və nüvə müharibəsinə gətirib çıxara bilər, həm Rusiya, həm də Alyans bundan qaçmağa çalışır", - ekspert izah edib.**

Politoloq qeyd edib ki, təhlükə real olsaydı, Qərb kəşfiyyatı artıq bu barədə məlumat verərdi. Ekspertin fikrincə, Belarusdakı nümayişkaranə hərbi aktivliyin arxasında Rusiyanın Ukrayna Silahlı Qüvvələrinin Donbassdakı bölmələrini gücləndirə bilməmək üçün bu istiqamətdə Ukrayna qoşunlarının bir hissəsini geri çəkmək istəyi dayanır.

***✍ Sultan Laçın***

# Yenilənən Özbəkistan...

***Qardaş Özbəkistanda baş verən daxili siyasi hadisələr hazırda dünya ictimaiyyəti tərəfindən maraqla, həm də narahatlıqla izlənilir. Xüsusilə də türk dövlətləri narahatlığın birdəfəlik aradan qaldırılmasını istəyirlər. Bəs nə olub Orta Asiyanın tam mərkəzində? Qaraqalpaqıstan Muxtar Respublikasının xalqını narazı salan və ya gələcəyini əndişələndirən nədir? Prezident Şavkat Mirziyoyevin konstitusiya islahatlarına dair hazırladığı və səhv etmirəmsə, iyulun 5-dək ictimai müzakirələrə açıq olan layihəmi? Hə, bu layihənin 70 - 75-ci maddələri məhz Qaraqalpaqıstanın muxtar hüquqlarını təsbit edir. Yəni layihədə insanlardan muxtariyyətin aradan qaldırılıb-qaldırılmamasına münasibət bildirilmələri tövsiyyə olunur.***



Xaricdən idarə olunan təxribat

## Araşdırma

Görünən budur ki, yatmış casuslar (onlar əminliklə deyirəm ki, Rusiya kəşfiyyatına bağlıdır. Rusiya ondan uzaqlaşan və Türk Birliyində birləşməyə başlayan Orta Asiya dövlətlərini nəzarətdən buraxmaq istəmir. Odur ki, Qazaxıstanın arxasında, Özbəkistan və Türkmənistanın isə tam içində - türk dünyasının mərkəzində yerləşən Qaraqalpaqıstanın geniş ərazisini hərbi poliqona çevirmək istəyir. Eynilə Avropanın içində Kalininqrad, Moldovada Dnestryanı və sair torpaqlar kimi - V.T.) sən demə, oyaqmışlar, sadəcə fürsət gözləyirlərmiş. Bir qrup ortaya çıxaraq "Hüquqlarımız əldən gedir!" deyərək əhalinin az qismini də olsa küçələrə çağırır. Hətta acığa düşərək müstəqillik şüarını da səsləndirirlər. Təbii ki, Prezident Şavkat Mirziyoyev təcili Qaraqalpaqıstanın inzibati mərkəzi olan Nukus şəhərinə uçub, yerli hökumətlə, parlamentarilərlə görüşüb. Prezident qaraqalpaq xalqına müraciət edir ki, sizin hüquqlarınıza toxunulmur - 70-75-ci maddələr olduğu kimi qalacaq. Müzakirəsi davam edən isə sadəcə layihədir, ona görə müzakirə olunur ki, siz orada öz fikir və mövqeyinizi açıq ortaya qoyasınız. Bunun üçün nümayişə çıxmağa, zorakılıq törətməyə lüzum yoxdur...

Təəssüf ki, pusquya yatmış casus şəbəkəsi insanların bir qismini də olsa küçəyə çıxara bildi və bu da qaraqalpaq ictimaiyyətinə ziyan vurdu. Dövlət rəhbərliyi ayıq tərpəndi, hadisələrin qışda qonşu Qazaxıstanda olduğu kimi, genişlənməsinə və zorakılığa çevrilməsinə imkan vermədi. Əfsuslar olsun ki, məhz təxribata uymuş insanlar arasında 18 nəfər həlak oldu, 243 nəfər isə yaralandı (38 nəfəri hüquq-mühafizə orqanları əməkdaşlarıdır).

Əlbəttə, artıq Nukus küçələrində tam sakitlikdir, insanlar heç nə olmayıbmış kimi, öz gündəlik işləri ilə məşğuldur. Fövqəladə vəziyyət rejiminin hökmünə uyğun olaraq təhlükəsizlik qüvvələri də asayişin davamlılığını təmin edirlər.

Ümumiyyətlə, Qaraqalpaqıstan əhalisi və ya başbilənləri oturub düşünüblərmi ki, Özbəkistandan ayrılsalar və ya Özbəkistanın dəstəyi olmadan ayaqda qalmaları mümkündür, ya yox? Ərazisi 166,6 min kvadratkilometr olan muxtariyyətdə 2 milyon insan yaşayır. Etnik qaraqalpaq əhali bu iki milyonun sadəcə 35,8 faizi qədərdir. Özbəklər burada say etibarilə qaraqalpaqlardan daha çoxdurlar (39 faizə yaxın), hətta burada 300 minədək etnik qazaxlar da yaşayır. Əminliklə demək olar ki, muxtariyyətin ləğvinə dair referendum keçirilsə əhalinin böyük hissəsi "hə" deyəcək.

Qaraqalpaqıstanın geniş ərazisi başdan-başa Qızılqum səhrasından ibarətdir. Əvvəllər Qazaxıstanla bölüşdüyü Aral dənizi isə daha yoxdur. İndi həmin dənizin yerində çox böyük duzlu və quraq çökəklik, sadəcə şimal-qərb küncündə kiçik göl qalır. İstər içməli, istərsə də suvarma məqsədli yeganə su mənbəyi Amudəryadır ki, onun da adı qalıb. Zatən Amudərya Qaraqalpaqıstanı təmin etsəydi, Aral gölü qurumazdı. İndi hələ yaxşı günləridir, ildən-ilə sürətlənən qlobal istiləşmənin fəsadları bir azdan Qaraqalpaqıstan ərazisini yaşanılmaz hala gətirəcək.

Sənayesindən kənd təsərrüfatına, ərzağından dava-dərmanına - bütün zəruri ehtiyaclarına qədər Daşkənddən asılı olan Qaraqalpaqıstan əhli bu təxribata uyarsa başına gələcəkləri heç düşündümü? Bəziləri deyirmiş ki, Qazaxıstana birləşəcəklər, mümkün deyil. Qazaxıstan sərt tədbirlər almağa səsləyib Daşkəndi və var qüvvəsi ilə Özbəkistan hökumətinə dəstək verəcəklərini bildirib. Türkmənistandan da heç nə gözləməsin qaraqalpaqlılar - Türk Birliyi gündən-günə birləşərək güclənməyi hədəf seçib, parçalanmağı yox. Fikirləşdikləri kimi, Rusiyanın onlara təyyarə ilə daşıyacağı yardımlar isə bu xalqa səfalətdən başqa heç nə verməyəcək... Bəs özbək ictimaiyyətinin tanınıb-seçilən nümayəndələri nə deyir məlum proseslə bağlı?

■ **"Yüksəliş" Ümumxalq Hərəkatının sədri, millət vəkili Bobur Bekmurodovun sözlərinə görə, Qaraqalpaqıstanın status məsələsi qaraqalpaq cəmiyyətinin müəyyən hissəsində anlaşılmazlıq və təşviş doğurub.** "Bir neçə gündür ki, əhalinin narazı hissəsi öz fikrini bildirmək üçün rəsmi vasitələrdən istifadə edib. O cümlədən, sosial şəbəkələrdə 1341 nömrəsinə zəng ediblər, "Mənim Konstitusiyam" platformasına da müraciətlər göndərilib. Hadisələrin inkişafını, xüsusi təşkil olunmuş teleqram messencerlərini şəxsən müşahidə edirdim və araşdırmışam.

Nəticə ondan ibarətdir ki, müzakirələrin əvvəlində əhali öz narazılıqlarını yalnız rəsmi kanallar vasitəsilə bildirirdi. Amma Nukus şəhərində qəfildən təcavüz elementləri olan qanunsuz nümayişlər təşkil olunub. Ayrı-ayrı qruplar və təxribatçılar toplaşan vətəndaşlara müdaxilə edərək inzibati binalar kompleksində dövlət qurumlarını zəbt etməyə cəhd göstəriblər. Məqsəd aydındır - Özbəkistanda ictimai-siyasi vəziyyəti pozmaq. Əminəm ki, hüquq-mühafizə orqanları bu cinayətkar cəhdlərə hüquqi qiymət verəcəklər", - cənab Bekmurodov deyib.

O, yerli və beynəlxalq ictimaiyyəti geosiyasi proseslərin təxribatçı dalğalarından xəbərdar olmağa və onların hədəfinə çevrilməməyə çağıraraq bildirib ki, Özbəkistanın son illər ardıcıl inkişaf edən və demokratik dəyərlərə sadiqliyini nümayiş etdirən ölkə olaraq hər bir vətəndaşının konstitusiya dəyişiklikləri ilə bağlı öz fikrini bildirmək hüququ var. Eyni zamanda, bütün bunlar hüquqi imkanlar çərçivəsində həyata keçirilməlidir.

■ **"BMB Trade Group" Müşahidə Şurasının sədri Behzod Mamatkulov da deyib ki, qaraqalpaq və özbək xalqları tarixən bir yerdə yaşayıb, qaynayıb-qarışıblar və onları ayrı-ayrılıqda təsəvvür etmək mümkün deyil.** "Son bir neçə gündə konstitusiya islahatlarının bir qədər yanlış şərh edilməsi səbəbindən orada yaşayan bəzi insanlar arasında narazılıq yaranıb və etiraz aksiyası baş verib. Bunu vaxtında dərk edən dövlət başçısı Qaraqalpaqıstana gələrək, konstitusiya islahatlarının Qaraqalpaqıstan Respublikası ilə bağlı hissəsinin dəyişdirilməyəcəyini açıqlayıb. Bu, düzgün qərar idi. Bir sahibkar kimi, minlərlə işçinin lideri kimi mən də bunu dəstəkləyirəm" deyən Mamatkulov qeyd edib ki, bütün problemlərin ən qısa vaxtda tam aradan qaldırılacağına əmindir və əsrlər boyu davam edən möhkəm dostluq əlaqələri əbədi olaraq yaşayacaq.

■ **Özbəkistan Konstitusiya Komissiyasının üzvü, hüquqşünas professor Mirzəyusuf Rüstəmboyevin sözlərinə görə, konstitusiya canlı qanundur və bu səbəbdən o da köhnəlir və dəyişdirilməsi lazımdır.** Müstəqillik illərində qəbul edilmiş konstitusiyada SSRİ konstitusiyasından qalan çoxlu normalar çıxarılıb. "Dünyada konstitusiya modeli yoxdur. Ona görə də biz Özbəkistan Konstitusiyasını hazırlamaqda çox çətinlik çəkdik.

Hansı ki, indi onun qəbulundan 30 il keçir. Hesab edirəm ki, mövcud əsas qanunumuz bu müddət ərzində öz məqsədini yerinə yetirib. Müstəqillik əldə etdikdən sonrakı 30 il ərzində Özbəkistan bir yerdə dayanmayıb. İqtisadiyyatımızda dəyişikliklər olub, insanlarımız, siyasətimiz dəyişir. Konstitusiya Komissiyasının üzvü kimi demək istərdim ki, əsas qanunumuza əlavə və dəyişikliklərlə bağlı 60 mindən çox təklif daxil olub. Bu, əhalimizin hüquqi şüurunun, mədəniyyətinin yüksəlməsinə işarədir. Burada vurğulamaq lazımdır ki, konstitusiya dogma deyil: canlı qanundur, zamana və islahatlarımıza uyğun dəyişməlidir", - cənab Rüstəmboyev deyib.

■ **Tanınmış özbək yazıçı Kərimbərdi Toramurod ölkənin birliyinə qarşı çıxanlara sərt dillə cavab verib. Bildirib ki, hadisələrin qarışdığı ilk gün prezident Nukusa getməklə çox düz edib.**

"Prezident bildirib ki, Qaraqalpaqıstanla bağlı heç bir maddəyə dəyişiklik edilməyəcək. Düz deyib! Prezident sərəncam verib: "3 iyul 2022-ci il saat 00:01-dən 2 avqust 2022-ci il saat 00:00-dək Qaraqalpaqıstan Respublikasının ərazisində fövqəladə vəziyyət tətbiq edilsin!". Prezident bu sərəncəmı da çox düzgün olaraq verib! Buyurun, bizim qaraqalpaq qardaşlarımızın başını döndərənlər, onları qızışdıranlar, görək nə edəcəksiniz!", - cənab Toramurod deyib.

■ **Dünya İqtisadiyyatı və Diplomatiya Universitetinin doktoru, sosioloq alim Əzəmət Seyidovun sözlərinə görə, konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı layihə parlament tərəfindən yalnız birinci oxunuşda qəbul edilib.** Yəni bu, adi layihədir. Təəssüf ki, bunun hələ bir layihə olduğunu və təkliflərin dinlənilməsinin davam edəcəyi bildirilsə də, bəziləri bunu yeni konstitusiya kimi qəbul edib. "Əsas etirazlar konstitusiyanın 70-75-ci maddələri ilə bağlı olub. Konstitusiya islahatlarının başlanğıcında hökumət təkliflər vermək üçün bütün imkanları yaratmışdı. Əvvəlcə fleşmob şəklində, sonra isə manipulyasiya texnologiyaları vasitəsilə bu müzakirələr böyüyərək qanunsuz mitinqlərə çevrildi. Onu da deyim ki, bu nümayişlər öz fikrini qanuni şəkildə ifadə edən bütün qaraqalpaq xalqının iradəsi deyildi.

Prezident Şavkat Mirziyoyev bildirib ki, yeni qəbul edilən konstitusiya xalqın konstitusiyası olacaq və dövlət başçısı sözünün üstündə durdu. Nukusda olarkən xalq nümayəndələrinin, fəalların sözlərini dinləyib və xalqın narazı olduğu normalara heç bir dəyişiklik edilməyəcəyini vurğulayıb. Bu gün əhalinin hüquqi savadı artıb, hamı sənədləri öyrənir. Lakin bəzi insanlar populist sözlərə uyaraq öz fikirlərini ifadə etmək üçün qeyri-qanuni yollara keçirlər. Bir şeyi başa düşmək lazımdır: gedən demokratik islahatlar bizə ifadə azadlığı ilə yanaşı, məsuliyyət də verir. Belə dağıdıcı ifadə və etiraz formalarının artması heç də həmişə cəmiyyətə xeyir gətirmir", - cənab Seyidov deyib.

■ **Özbəkistanlı din alimi, professor Mübaşşir Əhməd Qaraqalpaqıstan əhalisini Özbəkistanın birlik və bütövlüyünə zidd addım atmaqdan çəkinməyə və xarici qüvvələrin təsiri altına düşməməyə səsləyib.** "Hesab edirəm, Prezident Mirziyoyevin Nukusa səfəri və Özbəkistan Konstitusiyasının 70-75-ci maddələrinin hazırkı redaksiyada dəyişməz qalması ilə bağlı qaraqalpaq xalqına xitabən səsləndirdiyi fikir sülhə doğru addımdır. Hələlik məsələnin bir tərəfini görə bilərik.

Bundan əlavə, müstəqillik və suverenliklə bağlı əvvəlki dalğanı görmüşük. Müstəqillik ərəfəsində Özbəkistanın çıxışlarına baxdıq. Bu zaman insanlar hislərə çox önəm verirlər. Emosiya artdıqca ağıl geri çəkilir. Ona görə də prezidentin bu məsələ ilə bağlı hansı qərarı çıxarsa, dəstəkləməyin tərəfdarıyam. Ümid edirik ki, dövlət başçısının qərarı bu hadisələrə çarə olacaq və Allahdan da bunu diləyirik", - professor Əhməd deyib.

Professor bəzi qaraqalpaq millətçilərinin müstəqillik barədə çağırışlarına toxunaraq deyib ki, Aral dənizi quruduqca bu ölkədə böyük ekoloji problemlər yaranıb. Bundan əlavə, həllini gözləyən bir çox iqtisadi və sosial məsələlər var. Bu mənada onların müstəqillik tələbi arzulamadıqları itkilərə səbəb ola bilər. "Üstəlik, bu vaxtadək özbəklərdən heç bir pislik görmədilər, onlara pis gözlə baxılmayıb. İnanıram ki, bu siyasət davam edəcək - özbəklər yaxşı dost, insanpərvər, qonaqpərvər xalqdır. Bu mənada mən qaraqalpaq dostlarımızdan xahiş edərdim ki, özbəklərdən uzaqlaşmasınlar, əksinə daha çox yaxınlaşsınlar. Özbəklərlə qaraqalpaq xalqının dini, dili, baxışı eynidir. Ona görə də xahiş edirəm ki, heç bir çağırışa uymadan ümumi rəhbərlərimizin sözlərinə tabe olsunlar", - Mübaşşir Əhməd deyir.

✍ *Vüsal Tağıbəyli*

## Tranzit

***Türkmənistan qazının Azərbaycan üzərindən nəql olunaraq Türkiyəyə çatdırılması məsələsi yenidən gündəmə gəlib. Bu günlərdə Türkiyə vitse-prezidenti Fuat Oktay Türkiyənin Aşqabaddakı səfirliyinin iqamətgahında deyib ki, türkmən təbii qazının Türkiyəyə çatdırılması üçün 3 variant üzərində iş aparılır və bu istiqamətdə hazırlıq işləri yekunlaşmaq üzrədir.***




# Türkmən qazının Azərbaycan yolu



**İlham Şaban,**
Neft Araşdırmalar Mərkəzinin rəhbəri

Türkmənistan təbii qazının Türkiyəyə gətirilməsi üçün bir neçə alternativin olduğunu deyən Oktay bildirib: "Biz 3 alternativ üzərində işləyirik: "Xəzərdən keçən TANAP xəttinin istifadəsi, SWAP müqaviləsi və ya boru kəməri, dəniz yolu ilə boru kəmərinə qədər. Məmnuniyyətlə demək istəyirəm ki, biz işləri tamamlanmağa çox yaxınıq".

Qeyd edək ki, Türkiyə vitse-prezidentinin bu bəyanatı ABŞ mətbuatının da diqqətini çəkib. Bununla bağlı ABŞ-ın "Eurasianet" saytında dərc edilən məqalədə bildirilib ki, Avropa Rusiya təbii qazına alternativ mənbə axtardığı dövrdə, Türkiyə Azərbaycan vasitəsilə Türkmənistan "mavi yanacağı"nın ölkəyə nəqli ilə bağlı imkanlarının öyrənildiyini bəyan edib.

Məqalədə qeyd olunub ki, bu məqsədlə hazırda yalnız Azərbaycan təbii qazının nəql edildiyi TANAP kəmərindən istifadə edilməsi nəzərdə tutulub. Bildirilib ki, qoca qitədə enerji böhranı başlayandan bəri azərbaycanlı rəsmilər Avropanın Azərbaycandan təbii qaz ixracının artırılması ilə bağlı çağırışlarını açıq şəkildə dəstəkləyib. Bəs, görəsən, türkmən qazının Türkiyə tərəfindən alınaraq Azərbaycan üzərindən daşınması indiki şəraitdə həm qiymət, həm də tranzit baxımından nə dərəcədə real və effektlidir? Bu məsələdə Azərbaycanın qazancı nə ola bilər?

Qeyd edək ki, hələ 1997-ci ildə Türkmənistanla Türkiyə arasında qazın alqı-satqısına dair kommersiya sazişi imzalanıb. Bu proses Transxəzər qaz kəməri vasitəsilə reallaşmalı idi. Həmin sazişə əsasən, Türkiyə Transxəzər kəməri vasitəsilə ildə 30 mlrd kubmetr qaz almağa dair öhdəliyi 2000-ci idən başlayaraq öz üzərinə götürür.

1998-ci ilin aprelində Türkmənistan prezidenti Saparmurad Niyazov ABŞ-a işgüzar səfəri zamanı bu məsələ onun dövlət başçısı Bill Klinton və vitse-prezident Albert Qor ilə görüşlərində yüksək səviyyədə müzakirə mövzusu olmuşdu. 1999-cu ilin 19 fevralında Aşqabadda təntənəli surətdə Transxəzər qaz kəməri layihəsinə dair Türkmənistan hökuməti ilə PGS konsorsiumu arasında müqavilə imzalanır. Müqaviləyə həmçinin ABŞ prezidentinin və dövlət katibinin Xəzər regionunun enerji məsələləri üzrə müşaviri Riçard Morninqstar da imza atır.

1999-cu ilin əvvəlində artıq layihənin texniki-iqtisadi əsaslandırılmış layihəsi mövcud idi və Transxəzər kəmərinin 28 ay müddətində həm türkmən hissəsinin, həm də sualtı hissəsinin tikilməsini başa çatdırmaq nəzərdə tutulurdu. Azərbaycan və Gürcüstan üzərindən keçəcək yerüstü hissə Ərzurumda başa çatmalıydı. O zaman türkmən qazının Avropa bazarına çıxarılması ilə bağlı layihə gündəmdə deyildi: əsas və perspektiv bazar kimi Türkiyə nəzərdən keçirilirdi.

O zaman həm Rusiya, həm də İran Transxəzər qaz kəmərinin əleyhinə müxtəlif səviyyələrdə iş aparırdılar. Real olaraq Rusiyada hakimiyyətə Vladimir Putin gələndən sonra bu layihə gündəmdən çıxdı və PGS konsorsiumu 2000-ci ilin ortalarında ləğv edildi.

■ **Mövzu ilə bağlı hafta.az la fikirlərini bölüşən Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban bildirib ki, indiki şəraitdə Türkiyə ilə Türrkmənistan arasında iri həcmli qaz alğı-satqısının baş tutacağı inandırıcı görünmür:**

"Çünki Türkmənistandan qazın istər İran üzərindən, istər Transxəzər kəməri vasitəsilə Türkiyəyə çatdırılması müşkül məsələdir. Tranzxəzər boru kəmərinin effektli işləməsi üçün minimal 10 milyard kubmetr qaz lazımdır. Tutaq ki, 10 milyard kubmetr türkmən qazını Xəzərin bu sahilinə çatdırdılar. Bəs, Səngəçaldan onu Türkiyəyə necə çatdıracaqlar? İş burasındadır ki, Cənub Qaz Dəhlizinin Türkiyə-Avropa sərhədinə qədər gücünü 31 milyard kubmetrə qədər artırmaq olar. Hazırda bu Dəhlizin buraxılış gücü 16 milyard kubmetrdir. 10 milyard Türkmənistan tərəfdən təbii qaz gələndən sonra Dəhlizdə cəmi 5-6 milyard kubmetrlik yer qalır. Bu zaman sual yaranır ki, bəs Azərbaycan öz qazını necə ötürəcək? Azərbaycan "Abşeron 2" layihəsi üzrə təqribən 8-10 milyard kubmetr qaz hazil etməyi planlaşdırıb. Bu qaz da Avropaya gedəcək. Yəni, deməyim odur ki, maksimum 5 milyard kubmetr türkmən qazı göndərilə bilər.

İkinci bir məsələ var, Türkmənistan hamıya bəllidir ki, ixrac qazının reallaşması üçün 1dollar belə özü investisiya qoymur. Transxəzər-i tikməyə, həmin boru kəmərinin burdan Türkiyə və ya Avropaya qədər genişləndirilməsinə pulu kim qoyacaq. Biz pulu verəcəyik ki, Türkiyə üçün də türkmən qazı gəlsin? Boru kəməri belədir ki, hansı bazara gedirsə, orada mal çoxadığından endirim kampaniyası başlayır.

Bu Azərbaycanda qazı hasil edən şirkətlərin marağındadırmı? Yəni, mən burada hansısa kommersiya cəlbediciliyi görmürəm. Digər tərəfdən, Türkiyə tərəfində də o vəsaiti görmürəm ki, məsələn, "Botaş" şirkəti yaxud Türkiyə hököməti qazın bura gətirilməsinə və

> *"Tranz-Xəzər boru kəmərinin effektli işləməsi üçün minimal 10 milyard kubmetr qaz lazımdır*

borunun genişləndirilməsinə 5 milyard dollar vəsait xərcləsin. Yəni, bu variant reallıqdan uzaq məsələdir. İkinci variant, SWAP-a baxaq. Azərbaycanda nədənsə, hamı SWAP-i o cür başa düşür ki, Türkmənistan qazı gəlir İrana, sonra İrandan Azərbaycana və Azərbaycandan da Türkiyəyə gedir.

Belə bir sual ortaya çıxır ki, Azərbaycanla İran arasında qazın svop-na infrastruktur nə dərəcədə imkan verir? Yəni, Astara-Hacıqabul boru kəmərinin ötürücülük qabiliyyəti 1 milyard kubmetrdir.

Modernizasiya işləri aparmaqla maksimum 1,5 milyard kubmetrə qədər ötürücülük gücü əldə etmək olar. Bu mümkündür. Amma yenə də sual yaranır, Türkiyəyə vacibdirmi türkmən qazı gəlsin İrana oradan Azərbaycana, Azərbaycandan Gürcüstana və oradan da Türkiyəyə daxil olsun? Elə qaz Türkmənistandan İrana ordan Təbriz-Ərzurum boru kəmərinə ötürülər. Bu kəmərinin buraxıcılıq gücü 14 milyard kubmetrdir və bir neçə ildir ki, 9-10 milyard kubmetr civarında istifadə olunur. Bu kəmərə daha çox qaz vurmaq olar. Ola bilər ki, hansısa siyasi məqsədlərlə lap 2 milyard kubmetr qaz Azərbaycan üzərindən Türkiyəyə çatdırılsın. Bu baha başa gələcək. Təbii ki, siyasətçi və ya texnikadan uzaq adamlar üçün bunun əhəmiyyəti yoxdur. Elə bilirlər ki, burada düyməni basanda Avropada işıq yanacaq. Amma reallıq daha mürəkkəbdir".

✍ *Sevinc*

# PKK-nın əsas himayədarları... İran və “Hizbullah”dır

***AKP iqtidarı qardaş Türkiyəni idarə etməyə başlayandan sonra, vaxtilə SSRİ tərəfindən yaradılmış PKK-ya qarşı mübarizə tədbirləri sürətlə və effektiv şəkildə həyata keçirilir. PKK-nın terror hücumları sıxışdırılaraq Türkiyə Dövlətinin ərazisindən kənara çıxarılıb. Sərhəddən kənarda da fərqli adlar altında fəaliyyət göstərən yan quruluşların himayə və yardımı ilə zaman-zaman qardaş ölkəyə qarşı terror hücumları edilir. Türkiyə 20 il öncəki zəif, Qərbin də planları əsasında, iki aydan bir koalisiya çəkişmələri nəticəsində hökumətsiz qalan, adi tüfəng mərmisi üçün Avropanın cırtdan ölkələrinin qapısına düşən, əksər vaxtlar da qarşısına min cür şərtlər qoyulub geri qaytarılan Türkiyə deyil.***



## Təhlil

PKK da əvvəlki təşkilat deyil - artıq dağda-daşda öz canının hayındadır.... Yuxarıda qeyd etdim ki, PKK Sovet İttifaqı tərəfindən NATO Türkiyəsinə qarşı yaradılıb. Təbii ki, əvvəllər SSRİ-nin, indi isə birbaşa Rusiya kəşfiyyatının himayəsində olan PKK terrorçuları hələ də Kreml tərəfindən bəslənilir. Bunlardan biri Rusiyanın kürdmənşəli vətəndaşı olan Sərhad Kərimdir. Təxminən, 20 il öncə PKK-nın ən sözükeçən dırnaqarası komandirlərindən olmuş S.Kərim bu günlərdə “İndependent”ə bəzi sirləri açıb. Bildirib ki, 1998-ci ildə 19 yaşındaykən hüquq fakültəsinə daxil olduğu halda təhsilini bir kənara qoyub, PKK-ya qoşulub və qısa baxtda “komandir rütbəsinədək yüksəlib”. Aradan 20 il ötdükdən sonra, PKK-nın mənasız olduğunu anlayıb oradan uzaqlaşır.

### “PKK-dan uzaqlaşmaq istəyənlər öldürülüb”

**“O vaxt deyirdilər ki, təşkilatın məqsədi kürd və Kürdüstandır. Təşkilat rəhbərləri birmənalı olaraq deyirdilər ki, “Bu il Kürdüstanı xilas edəcəyik, bu il müstəqillik ilidir, gələn il azad yaşayacağıq”.** 2002-ci ilə qədər ümidim vardı. Yəni mənim keçiriləcək qurultayla bağlı yeni nəsə olacağına ümidlərim var idi. Səddamın devrilməsi ilə İraq Kürdüstanında kürd hökuməti qurulacaqdı. PKK-nın da həmin hökumətə qoşulacağı gözlənilirdi. Xüsusilə təşkilatda bizim üçün böyük gözlənti vardı, amma onu da məhv etdilər. Təbii ki, zaman keçdikcə müxtəlif hadisələrin şahidi olduq, gözləntilərin özünü doğrultmadığını anladım...”, - S.Kərim deyib. O bildirib ki, qurultay 2002-2003-cü illər arasında Qəndildəki mağaraların birində keçirilib. Məhz həmin il beynəlxalq güclər KDP (Kürdüstan Demokratik Partiyası) və KYB-ni (Kürdüstan Vətənpərvərlər Partiyası) bir araya gətirərək ortaq kürd hökuməti qurmaq istəyirdilər. Bizə aydın idi ki, Qərb o zaman Ərbil hökumətinin timsalında PKK-nı siyasi quruluş olaraq təsdiqləməyə çalışırdı. “Yadımdadır, vəkilləri Abdullah Öcalanın məktubunu Qəndilə gətirdilər. Öcalan qəti tapşırıq verirdi ki, PKK-nın sükanı arxasında olan heç kim qurultaya qatılmasın. O vaxt ssenari belə idi ki, Məsud Bərzani yeni hökumətə rəhbərlik edəcək, Leyla da onun yardımcısı olacaq. Öcalan məktubda qeyd edirdi ki, təşkilatın adını dəyişib KADEK (Kürdüstan Azadlıq və Demokratiya Konqresi) qoyulsun və Karayılan ona rəhbərlik eləsin. KADEK-in toplantısı İmralı zindanından idarə olunurdu. Qurultayda Zübeyir Aydar, Remzi Kartal, İran PJAK-ının rəsmisi, Ərbildən ziyalılar iştirak edirdi. Daha sonra 4 aprel 2002-ci ildə qurultayın ilk günü PKK adı altında həyata keçirilən fəaliyyətlərin dayandırılması və KADEK adının üst təşkilat kimi istifadə edilməsi qərara alındı. Aponun təklif və göstərişlərinə əməl edilmədi. Bu layihə və proses Cəmil Bayıkın liderliyində Mustafa Karasu və Duran Kalkan kimi adlarla baltalandı. Karayılan təzyiq altında və könülsüz şəkildə Bayıkın tərəfinə keçsə də, ümumiyyətlə, hələ də ortada oynayır. Üstəlik, Osman Öcalan və Nizaməddin Taş kimi adlarla fikir ayrılığı dalana dirəndikdən sonra onlar partiyadan çıxarıldılar. Müqavimət göstərsəydilər edam olunacaqdılar. Onlar da o zaman Kürdüstan hökumətinə sığındılar. Əslində doğru addım atdılar, çünki PKK-dan ayrılan və ya ümumiyyətlə, öz həyatına qayıtmaq istəyənlərin əksəriyyəti artıq öldürülüb...”, - keçmiş PKK komandiri deyir.

### Şiə himayədarlar

**Müsahib bildirib ki, o vaxt PKK-nın və liderlərinin, o cümlədən Cəmil Bayık İranın tapşırıqlarını yerinə yetirirdi. İran bu yolla gələcəkdə özünün ərazi bütövlüyünə təhlükə olmasın deyə edirdi.**

“Bu gün də görürük ki, Rəmzi Kartal, Zübeyir Aydar və bir çoxları Avropada kürdlərə, Kürdüstana işləməyə imkan vermirlər. Bir sözlə, Abdulla Öcalanı dinləmədilər. Onlar hətta Öcalanın qardaşı Osman Öcalanı öldürməyə cəhd ediblər”, - deyən S.Kərim bildirib ki, kürdlərin birliyi məhz sözügedən proseslə pozulub.

Keçmiş PKK-çı qeyd edib ki, 2002-ci ildən sonra PKK-nın mövqeyi həm kürdlər arasında, həm də Avropada, Skandinaviyada və Rusiya kimi bir çox ölkələrdə xeyli zəifləyib. “Öcalan həbs edildikdən sonra Cəmil Bayık lider oldu, amma çoxları onu ciddi qəbul etmir. Odur ki, o, hər an Apoya istinad edir, yəni Aponun kölgəsində fırlanır. Amma fakt odur ki, necə deyərlər, yağ lampası Cəmil Bayıkın əlindədir... O, özünü quldur mafiya başçısı kimi aparır. 2003-cü ildən sonra PKK Abdullah Öcalanın PKK-sı deyil və nöqtə! Cəmil Bayık PKK-nı yenidən formalaşdırdı və 19 ildir ki, Bayık İrana qarşı istənilən təhdid və hücumlara icazə vermir. O, birmənalı şəkildə İranın adamıdır. Bayık, hətta Öcalanın İmralıdan göndərdiyi məktubları belə öz istəyinə uyğun şərh edir. Öcalan onun barəsində çoxlu mənfi fikirlər bildirmişdi, hətta bir müddət təşkilatdan kənarda qalmasını istəmişdi. Amma onun dediklərinə məhəl qoyulmadı.

Təsəvvür edin, 2003-cü ildə İrana müdaxilə edəcəkdik, amma Bayik icazə vermədi. O, İran nə göstəriş verirsə, onu yerinə yetirir. Onlar İranın, eləcə də 100 faiz Hizbullahın təsiri altındadırlar. Bu gün biz İran siyasətinin bir çox nümunəsini görürük və kürdlər bunun ziyanını çəkir. Şengal, Kərkük, Mahmur və Rojavada da eyni siyasəti yürüdürlər. Qəndil müəyyən mənada İrana və Hizbullaha arxalanır”, - S.Kərim deyib.

Keçmiş PKK-çı qeyd edib ki, Cəmil Bayık Livanda yaradılmış Mahsum Qorxmaz Akademiyasının düşərgəsinə əsaslanır. Bayık o dövrdə İranla dialoqlarını artırmış və o dövrdə İranla münasibətlər də daxil olmaqla, PKK-nın bütün fəaliyyətini, diplomatik işlərini yürüdüb.

### PKK uşaqları qurban edir...

**“Əvvəlki kimi deyil, nə Avropada, nə Türkiyədə, nə də Rojhilatda (Suriyada) insanlar Qəndil üçün küçələrə çıxmırlar. Bu gün idarəçilər dəyişib, Rojavada PYD-nin çağırışları dinlənilir.**

Bu gün PKK öz bazasını azyaşlı uşaqlar hesabına gücləndirir. Onlarla, yüzlərlə kiçik uşaqları görmək olar PKK düşərgələrində ki, əllərinə silah verib döyüşməyə məcbur edirlər. Onlardan hər biri 60-70 nəfərlik batalyonlar təşkil edilir və onlara Duran Kalkan idarə edir. Bu batalyonlara cəlb edilmiş uşaqlar 12, 13, 14, 15 yaşlarındadır. Bu uşaqlara qurban olmağı öyrədirlər, sonra özlərinin və İranın maraqları üçün qurban verirlər”, - S.Kərim deyir.

Müsahib qeyd edir ki, hazırda PKK-ya qarşı minlərlə deyil, milyonlarla cinayət işi var. Beynəlxalq məhkəmələrdə hər bir işə ayrıca baxılması üçün illər lazım ola bilər. Onun qənaətincə, 2003-cü ildə PKK-nın adı və sistemi dəyişdirilsəydi, bir çox ittihamdan da qurtulardı. PKK adını dəyişmək istəsə belə, İran buna icazə verməyəcək. İran Qəndili öz maraqlarına uyğun şəkildə şantaj edir. İranın Qəndilə qarşı oynadığı bir çox sənəd və video görüntülər var ki, onların yayılması Qəndilin sonunu gətirər. Yəni İran PKK-nı tamamilə öz nəzarətinə götürüb.

S.Kərimin fikrincə, kürdlərin əsas siyasi partiyası olan HDP-nin çox böyük səhvləri var. Onlar ehtiyac yarandıqda vətəndaş hərəkatında işlərini davam etdirməli idilər, lakin əksinə, kürd siyasətçilərə partizan paltarı geyindirib, danışıqlara qatıblar. “HDP kürdlərin əsas siyasi partiyası olduğu halda, nə baş verdi ki, PKK-nın təsiri altında olan Cəmil Bayık, Karayılan, Duran Kalkan başda olmaqla oradan çıxmadı və vəziyyət getdikcə pisləşir. Qəndilin başbilənləri - Duran Kalkan, xüsusən də Cəmil Bayık sülh danışıqlarını pozdular. Sülh prosesinin reallaşması əslində arzuolunan deyildi. Bir qrup PKK-çı məmurlar - onlar mafiyadır, quldurdur - mən bunu çox açıq deyirəm - öz maraqlarını güdürlər. Onların problemi heç də kürdlər və Kürdüstan deyil, öz gələcəklərini təmin etməklə məşğuldurlar. HDP heç bir şəkildə PKK-ya yaxınlaşmamalıydı. Yenə soruşuram: Səlahəddin Dəmirtaşın Qəndildə nə işi vardı? Üstəlik, partizan paltarı geyinib, şəkillərini çəkdirdilər. HDP Türkiyə dövlətinin siyasi partiyasıdır. İşlərinə davam etsəydilər, 80 deputatlarını daha da artırardılar. Hansı ki, indi olan deputatların da bir çoxu həbs edilib. HDP ilə Qəndil xalqın ümidini qırdı”, - o deyib.

Müsahib onu da vurğulayıb ki, hazırda HDP CXP-dən mədət umur, amma onlar özləri zəif olduqlarından heç bir dəstək verə bilməyəcəklər. HDP-nin statusu birmənalı deyil. Hərdən CXP-yə yaxınlaşsa da, əlaqələri zəifdir. Onların ortaq məqsədi Türkiyənin hazırkı hakimiyyətinə qarşı birgə hərəkət etməkdir. Əgər Ərdoğan iqtidarını devirə bilsələr, CXP hakimiyyətə gələcək, kürdlər də verdikləri dəstəyin əvəzində istəıdiklərini alacaqlar.

### İsveç də Türkiyənin tələblərinə boyun əydi

**S.Kərim son vaxtlar Ərdoğanın “Bir gecə qəfildən gələcəyik” sözlərinin işarə etdiyi məqama - Türkiyənin Suriyada daha ir antiterror əməliyyatı aparmaq istəməsinə də münasibət bildirib. Deyib ki, hazırda Suriyada üç böyük güc var:** ABŞ, Rusiya və Türkiyə. Burada Türkiyəni gözardı etmək olmaz. Çünki türklər kiminsə yaşıl işıq yandırmasını gözləmədən Suriyaya girə bilər. Necə ki, əvvəllər də belə edib.

“Qəndil istədiyi qədər təbliğat aparsın, Türkiyə hərbi cəhətdən güclü ölkədir. Güclü deyildisə, Afrin, Serəkaniyə, Tel Abyadı necə aldı? Burada PKK-nın xüsusi rolu var. Qəndilin son açıqlamalarına baxın: “Bu dəfə əvvəlki kimi olmayacaq, bu dəfə sərt cavab veriləcək” və sair. Bizim dövrümüzdə də belə idilər, indi də, bəs nəticə nədir? Türkiyənin daxili işlər naziri Süleyman Soylu bu yaxınlarda “2023-cü ilədək Qəndilə bayraq sancacayıq” deyib. Süleyman Soylu ölkəsinin hazırkı hərbi qüvvəsinə əsaslanaraq bu sözləri dilə gətirib. Bayaq da dedim: Türkiyə artıq əvvəlki Türkiyə deyil. Üstəlik, Rojavada kürdlərin çoxluq təşkil etdiyi bölgələrin əksəriyyətinə ərəb yerləşdirilib. PKK hər keçən gün həm sosial baza, həm də hərbi, iqtisadi, logistika və iştirak baxımından zəifləyir. Bunlar realdır və Ankara bunlardan xəbərdardır. Məsələn, Şenqal əhalisi son vaxtlar PKK başda olmaqla, bütün qüvvələrin bölgəni tərk etməsini istəyir və bu tələb tədricən bütün bölgəyə sirayət edib. Kürdüstan hökuməti hər zaman PKK-nı öz ərazisini tərk etməyə çağırır. Rojavada insanlar narahatlığını dilə gətirməyə qorxsalar da, bezəndə sözlərini deyirlər. Yəni PKK hər cəhətdən zəiflədilib. Demokratikliyi ilə tanınan İsveç də Ərdoğanın son tələblərinə boyun əydi. Siyasət bir oyundur və ən demokratik ölkələr belə öz şəxsi mənafeyindən çıxış edir. Məsələn, İsveç demokratik ölkə olduğu üçün, həm də ölkənin maraqlarını hər şeydən üstün tutur.

✍ Vüsal Tağıbəyli

# Ermənilərin Laçın təxribatı

◂ əvvəli 1-ci səhifədə

■ **Üzeyir Cəfərov, hərbi ekspert:**

- Bu gün erməni separatçılarının nə deməyindən asılı olmayaraq, Azərbaycan öz ərazi bütövlüyünü tam şəkildə bərpa edəcək və buna heç kəsin şübhəsi yoxdur, olmamalıdır. Separatçıların “Laçından çıxmayacağıq” sərsəm bəyanatlarına gəlincə, Laçın sənin dədənin torpağı deyil, Laçın Azərbaycan ərazisidir! Azərbaycan qanunları ilə yaşamalısız. Özünüzü Azərbaycan qanunlarından üstün sayacaqsınızsa, anti-terror əməliyyatlarını həyata keçirdib sizi qanunlarımıza tabe etdirəcəyik.

Hazırki şəraitdə 3-cü Qarabağ savaşına ehtiyac olmayacaq. Bu gün Azərbaycan komando qüvvələri hazır vəziyyətdədir. Komando qüvvələri qısa zaman ərzində Laçını təmizləməyə qadirdir. Azərbaycan əhalisi də yaxın vaxtlarda həmin ərazilərdə yaşamağa başlamalıdırlar və başlayacaqlar. İndi bir iki erməni orda bir sıra infrastrukturu qurub yaşayırlar. Azərbaycanlılar da ora qayıtmalıdır. Prosesin bu dərəcədə qəlizləşməsinə görə həmin ərazilərdə müvəqqəti yerləşən Rusiya sülhməramlıları böyük məsuliyyət daşıyır. Məhz sülhməramlıların öz vəzifə borclarına səhlənkar yanaşması bu problemin dərinləşməsinə gətirib çıxarıb.

Rusiya sülhməramlıları 2020-ci il 10 noyabr sazişindən sonra bu məsələləri paralel olaraq həll etməli idilər. Problemlər həll olunmadığına görə ermənilər başlarından yekə hərəkətlər edirlər. O ərazilər Azərbaycanındır və heç bir vaxt erməniyə imkan vermərik ki, qanunlarımızı tapdalasınlar. Biz öz torpaqlarımızda ermənilərin sifarişi ilə oturub- durmayacağıq. Əgər ermənilər işğal dövründə 28 il Laçında yaradılan şəraitdən şirniklənib bundan sonra da orda yaşayacaqlarını düşünürlərsə, səhv edirlər. Yeni yolun açılmasından sonra ermənilər başa düşməlidirlər ki, bundan sonra separatizmin inkişafı, genişlənməsi üçün imkanları məhdudlaşacaq. Yəni Ermənistandan hansısa qeyri-qanuni yüklərin daşınması və yaxud da Qarabağa kimlərinsə gedib-gəlməsi məsələlərinin qarşısı alınacaq. Ona görə də ermənilər həm Kəlbəcər istiqamətində atəşkəsi pozur, həm Laçın istiqamətində belə təxribatçı hərəkətlər edirlər. Bunların heç bir perspektivi və nəticəsi yoxdur, olmayacaq. Azərbaycanın öz ərazilərini tam bərpa etmək üçün çox gözləmək lazım gəlməyəcək.



Rusiya sülhməramlılarının etmədiyini Azərbaycan əsgəri özü edir. Rus sülhməramlıları çoxdan erməniləri çıxartmalı idi. Bunu etmədilər. Biz 28 il ərzində gördük ki, ərazidə olan ATƏT-i Minsk Qrupu və digər qurumlar heç bir iş görmədi və bir dəfə də olsun dillərinə “erməni işğalçıdır” sözünü gətirmədilər. Nəhayət, Azərbaycan işğalçını öz yerində oturtdu və indi də Azərbaycan oğulları kimin nə deməsindən asılı olmayaraq bu məsələni həll edəcəklər. Laçında hər hansı geniş döyüş əməliyyatlarına ehtiyac olmayacaq. Həm daxili qoşunlar, həm də Müdafiə Nazirliyinin komando qüvvələri qısa müddətdə tam şəkildə hər şeyi öz nəzarəti altına alacaqlar. Sadəcə bunun üçün bir balaca qətiyyət göstərməliyik. Vaxt keçdikcə ermənilərin ayaqları bir balaca “yer alıb”. 44 günlük savaşdan sonra səs-soraqları gəlmirdi. Son vaxtlar görürük ki, arutunyanlar, balasyanlar, balayanlar bu və ya digər şəkildə özlərini gözə soxurlar ki, onlar da var... Azərbaycan vaxtı uzatmamalıdır. Vaxtın uzadılması ermənilərə sərf edir. Müəyyən hazırlıqların qarşısını almaq üçün qısa müddətdə təsirli addımlar atılmalıdır. Azərbaycan qarşı tərəfə- ermənilərə və Rusiya sülhməramlılarına xəbərdarlıq edib ki, Laçın yolunda hər hansı bir qanunazidd hərəkətlər olarsa, adekvatlar addımlar atılacaq. Bu da o deməkdir ki, əgər Azərbaycan əsgərinə atəş açılacaqsa biz durub baxmayacağıq. Azərbaycan lazım olacaqsa bütün vasitələrdən istifadə edib həm separatçları, həm də Rusiya sülhməramlılarını başa salacaq ki, görməli olduğu işi sona qədər başa çatdıra bilər.

■ **Alp Arslan İmamqulu, hərbi təhlilçi:**

- Ermənilərin ərazilərimizdə hansı hay-küyü yaratmasından asılı olmayaraq reallıq başqadır. Azərbaycan xalqının tələbi və onun Ali Baş Komandanının siyasi iradəsi məlumdur. Bu dəfələrlə müxtəlif beynəlxalq tədbirlərdə dünyaya bəyan edilib. Bütün məsələlər müəyyən olunmuş əsas mərkəzdən sapmadan Azərbaycanın təhlükəsizliyinin təmin olunması istiqamətində öz həllini tapmalıdır. Ərazilərimizi tərk etmək istəməyənlər varsa vətəndaşlığımızı qəbul etməlidir. Əlində silah terror aktı törətmək istəyənlər varsa ölü vəya diri olaraq zərərsizləşdirilməlidir. Xidməti sahəsində öz vəzifə səlahiyyətlərini aşan və bizə qarşı düşmən mövqe sərgiləyən ”sülhməramlı qüvvə” nəfərləri var isə aşkarlanaraq ərazilərimizi tərk etmə tələbi qoyulmalıdır. Tərəflər 10 Noyabr tələblərinə riayət etmək məcburiyyətindədir. Təhlükəsizliyimizin pozulması istiqamətində hər hansı terror aktı və müxtəlif cinayətlər törədilərsə anti-terror əməliyyatları keçirmək tam legitim haqqımızdır.

✍ Tahirə Qafarlı



■ **Ən böyük nüvə potensialına malik olan ölkənin cəzalandırılması ideyası özlüyündə absurddur və potensial olaraq bəşəriyyətin varlığını təhdid edir.**

Bunu Rusiya Təhlükəsizlik Şurası katibinin müavini Dmitri Medvedev ölkə rəsmilərinin Ukraynadakı müharibəyə görə beynəlxalq tribunal qarşısına çıxarılması perspektivi haqqında ”Telegram”dakı paylaşımında bildirib. “Mən Rusiyanın hərəkətlərinin qondarma təhqiqatı üçün tribunallar və ya məhkəmələr yaratmaq cəhdlərini axmaqlıq adlandırıram. Bu təkliflər təkcə hüquqi cəhətdən etibarsız deyil, həm də ən böyük nüvə potensialına malik olan ölkənin cəzalandırılması ideyası özlüyündə absurddur və potensial olaraq bəşəriyyətin varlığını təhdid edir”, - Medvedev deyib.



■ **Rusiya və Qazaxıstan daimi təmasdadır. Qazaxıstan tərəfindən Rusiyaya qarşı sanksiyaları dəstəkləmək üçün hələlik heç bir qərar qəbul edilməyib.**

Bunu Kremlin mətbuat katibi Dmitri Peskov bildirib. ”Hələlik heç bir qərar verilməyib. Əksinə, qarşılıqlı fəaliyyətimizi daha da genişləndirmək, xaricdən gələn çağırışlara birgə cavab vermək və bu qeyri-dost hərəkətlərin nəticələrini minimuma endirmək üçün mütləq niyyət bəyan edilir”, - deyə Kremlin sözçüsü vurğulayıb. O xatırladıb ki, ölkələrin hökumətləri daimi təmasdadır: ”Bu təmaslar müntəzəm olaraq, o cümlədən ən yüksək səviyyədə keçirilir”. Qazaxıstanın Rusiya Federasiyası üçün dost ölkə olub-olmaması ilə bağlı suala Peskov müsbət cavab verib:



■ **Ölkədə narkotik istifadəçilərinin sayı rəsmi qeydiyyatda olanlardan çoxdur.**

Bunu Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İslam Hümbətov yetkinlik yaşına çatmayanlar arasında narkotik və psixotrop maddələrdən istifadə dərəcəsinin qiymətləndirilməsi üzrə analitik hesabatın təqdimatı zamanı deyib. O bildirib ki, bu gün ölkədə narkotik istifadəçilərinin sayı rəsmi qeydiyyatda olanlardan çoxdur, narkotikə meylli şəxslərin vaxtında aşkarlanması, əhalinin maarifləndirilməsi prioritet məsələdir. Qeyd olunub ki, son 2 il 6 ay ərzində ölkədə narkotik vasitələrlə mübarizə sahəsində 19 mindən çox cinayət faktı müəyyən edilib, 7 tondan çox narkotik vasitə və psixotrop maddə dövriyyədən çıxarılıb:



■ **Göygöldə vəzifəli şəxsləri şantaj edən baş redaktor saxlanılıb.**

Daxili İşlər Nazirliyindən hafta.az-a verilən məlumata görə, Göygöl Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş müraciətlər əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində cari ilin iyun ayı ərzində Rayon Mərkəzi Xəstəxanasının direktoru V.Əliyevə, xəstəxananın şöbə müdiri Ə.Alıyevə, həkimi R.Əkbərova və Goranboy rayon Suvarma Sistemləri İdarəsinin müdiri İ.Məhərrəmova barələrində rüsvayedici məlumatlar yaymaqla hədə-qorxu gəlib müxtəlif məbləğlərdə pul tələb etməkdə şübhəli bilinən “Demokratik.az” saytının baş redaktoru, Göygöl şəhər sakini Osman Rzayev tutulub. Faktla əlaqədar Cinayət Məcəlləsinin 182-ci maddəsi (Hədə-qorxu ilə tələb etmə) ilə cinayət işi başlanılıb.




■ **Təhsil Nazirliyi müəllimlərin işə qəbulu və sertifikasiya prosesi ilə bağlı heç bir şirkət və ya tədris mərkəzi ilə əməkdaşlıq etmir və bu şirkətlərin fəaliyyətinə görə məsuliyyət daşımır.**

Bu barədə hafta.az-a Təhsil Nazirliyindən bildirilib. Qeyd edilib ki, vətəndaşlara hər hansı şirkət və ya şəxs tərəfindən verilən vəd müəllimlərin işə qəbulu və sertifikasiya prosedurları çərçivəsində heç bir rol oynamır. Belə hallarla qarşılaşan vətəndaşlardan Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146-3 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng, elektron (<https://edu.gov.az/az/contact_us>) və rəsmi ”Whatsapp” xidmətinə (0512067848) müraciət etmələri xahiş olunur.



■ **Bakıətrafı elə bağ evləri var ki, onların bir aylıq kirayəhaqqı 25 min manatdan çoxdur. Bunu daşınmaz əmlak üzrə ekspert Ramil Osmanlı deyib.**

Onun sözlərinə görə, 2020-ci ildə pandemiya ilə əlaqədar rayonlara gediş-gəlişin məhdudlaşdırılması, 2021-ci ildə isə xaricə səfərlərin məhdud olması səbəbindən proses bir qədər fərqli istiqamətdə getdi: ”Hər il yay mövsümündə bağ evlərinə tələbat artır. Amma 2020-2021-ci illərdə bu istiqamətdə situasiya fərqli oldu. Həmin dövrdə qiymətlərin fantastik artımı müşahidə olundu. Bu il də qiymətlərin artdığını görürük. Son iki illə müqayisədə qiymətlər qismən aşağıdır. Qış fəsli ilə müqayisədə isə yayda qiymətlərdə 2,5, bəzi ərazilərdə isə 3 dəfəyə yaxın artım olur”.

# Qurban Bayramının özəllikləri

**Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, Qazılər Şurasının üzvü Hacı Fuad Nurullayev hafta.az üçün budəfəki müsahibəsində koronavirus pandemiyası ilə bağlı əksər məhdudiyyət və qadağalar aradan qaldırıldıqdan sonra keçirilən Həcc mərasimi və Qurban bayramlarının icrasındakı dəyişikliklər, işğaldan azad edilmiş torpaqlarımızda gözlənilən bayram tədbirlərindən danışdı, Həcc ziyarəti və qurbanlıq heyvanların kəsimi ilə bağlı şəri hökmlər barədə oxuculardan ünvanlanmış sualları cavablandırdı.**



**Hacı Fuad Nurullayev,**
Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, Qazılər Şurasının üzvü

## Müsahib

***- Hacı, bildiyimiz kimi, ötən illərdən fərqli olaraq bu il pandemiya ilə bağlı, demək olar ki, bütün məhdudiyyət və qadağalar aradan qalxıb. Bu mənada artıq başlanmış Həcc mərasimində ötənildəkindən hansı fərqlər var? Qarşıdakı Qurban bayramında hansı yeniliklər gözlənilir?***

- Həcc ilə bağlı onu deyə bilərik ki, Allaha şükürlər olsun, artıq mərasim başlayıb. Azərbaycana 680 nəfərlik kvota verilib. Sonuncu reys iyulun 2-də yola salınıb. Zəvvarlarımız Ümrə Həcclərini icra ediblər. Hazırda hər şey qaydasındadır. Həccin əsas ayinlərinin icrasına hazırlıq görülür. Zəvvarlarımızla mütəmadi əlaqə saxlayırıq; heç bir ciddi problemləri yoxdur, xoş xəbərlərini alırıq. Dünən - iyulun 5-də soydaşlarımız Məkkədə şəhidlərimizin ruhuna xatir ehsanat süfrəsi açıb, onların ruhuna dualar oxuyublar. Və digər lazımi tədbirlər də həyata keçirilir. Ümidvarıq ki, inşAllah, sağ-salamat qurbanlarını da kəsəcəklər. Allah ziyarət və qurbanlarını qəbul etsin!..

Ötən 2021 və 2020-ci illərdə pandemiya ilə bağlı, bir çox ölkələrdən olduğu kimi, Azərbaycandan da demək olar ki, Həccə gediş durdurulmuşdu. Yalnız Səudiyyənin özü və bir neçə daha münasib ölkədən çox cüzi sayda zəvvarın ziyarəti üçün şərait yaradılmışdı. İslam şəriətinə görə, heç bir halda Kəbəni boş qoymaq olmaz. Peyğəmbərimizin (ə.s.) bununla bağlı hədisi var ki, Həcci, yəni Kəbəni heç vaxt boş qoymayın...

Qurbana gəldikdə, bildiyiniz kimi, dövlətimiz tərəfindən iyulun 9-10-u - iki gün Qurban bayramı kimi qəbul olunub. Əslində, dini baxımdan Qurban günləri üç gündür. Odur ki, 9, 10 və 11 iyul tarixlərində qurban kəsmək mümkündür.

Ötən iki ildəkindən fərqli olaraq bu il daha sərbəst şəkildə hər bir müsəlman harada istədisə, Allah yolunda qurbanını kəsəcək, inşAllah. Bütün məscidlərimizdə bayram namazları da qılınacaq. Qeyri-adi bir məhdudiyyət yoxdur...

***- Hacı, oxucularımızdan bir neçə sual var. Məsələn, sual edirlər ki, bəziləri sağ-salamat ikən kiməsə pul verərək öz yerinə naib tutub Həccə göndərir. Bu, nə dərəcədə doğrudur?***

- İnsan özü nə qədər ki, sağdır, öz yerinə başqasını naib edib Həccə göndərə bilməz. Yalnız, məsələn, mənim atam-anam dünyasını dəyişib və onların boynuna Həcc ziyarəti gəlmişdisə, lakin sağlıqlarında gedə bilməmişdilərsə, qismət olmamışdısa, mən onların böyük övladı olaraq yerlərinə Həcc ziyarətinə gedə bilərəm...

Necə ki, İslam şəriətində atanın (gözəl olar ki, ananın da) qəzaya getmiş namazlarını da böyük oğulun onun əvəzindən qılması buyurulur. Eləcə də öz boynuna düşən Həcc ziyarətini icra edibsə, böyük oğul növbəti dəfə həmin ziyarətə ata və anasının adından gedə bilər. Məsələn, atanın boynunda Həcc qalmayıbsa, mən böyük oğul kimi onun əvəzinə ikinci dəfə də Məkkəni ziyarət edə bilərəm.

Bir sözlə, insan sağ olduğu halda, kiməsə öz yerinə Həcc ziyarəti üçün naib etməsi yanlışdır və qəbul olunmur. Yalnız rəhmətə getmiş insanlar üçün kimsələr naib olub ziyarətə gedə bilər.

Bir şəxs o dərəcədə yaşlı və xəstədirsə ki, yerimək imkanı belə, yoxdur, ancaq anlaqlıdırsa, həkim buna icazə verirsə, o, əlil arabasında və ya başqa formada ziyarətə aparıla bilər.

Bununla belə, Həcc ziyarətində bəzi icra edilməsi vacib olan ayinlər var ki, onları xəstə zəvvarın əvəzinə kimsə edə bilər. Məsələn, Minada qurban kəsməyə, şeytana daş atmağa özü gedə bilmirsə, bir nəfəri bu işlər üçün naib edə bilər.

Yaxud orada qılınan bəzi namazları da qılmaq üçün naib tutulması mümkündür. Qalan məsələləri hər bir zəvvar özü icra etməlidir. Məsələn, Ərəfəyə getmək, daş yığmağa hər kəs yalnız özü gedə bilər. Hətta həmin əsnada zəvvar xəstə olsa, onu təcilu yardım maşınında daş yığılan məkana gətirirlər və onun yerinə başqa bir adamı naib edirlər ki, onun üçün daş toplasın.

*“Zəvvarlarımızla mütəmadi əlaqə saxlayırıq; heç bir ciddi problemləri yoxdur, xoş xəbərlərini alırıq*

*İnsan özü nə qədər ki, sağdır, öz yerinə başqasını naib edib Həccə göndərə bilməz*

*Bu il də azad olunmuş torpaqlarımızda, Qarabağda, Şuşada, Ağdamda qurbanlarımızı kəsəcək və bayram namazlarımızı qılacağıq*

***- Birinin atası ayrıca yaşayırsa və Qurban bayramında qurban kəsməyi niyyət edibsə, lakin bayrama az qalmış rəhmətə gedibsə, oğlu, yaxud qızı onun əvəzindən qurban kəsdirə bilərmi?***

- Öncə onu deyim ki, Məkkədə Həcc ziyarətində olan hər bir zəvvar öz adından mütləq bir qurban kəsməlidir. Bu, vacibdir. Orada başqa dogma və ya qohum-əqrəba üçün qurban kəsmək vacib deyil. Kiminsə imkanı var və buna niyyət edibsə, yaxud digər bir şəxs ona pul veribsə ki, mənim də adımdan Məkkədə qurban kəs, onları, təbii ki, kəsə bilərlər.

Biz daim tövsiyə edirik ki, burada yaşayan şəxsin Məkkədə öz adına qurban kəsdirməsi vacibat deyil. Daha yaxşı olar ki, imkanı olan insanlar qurbanları öz vətənlərində, el-obalarında, kəndlərində, şəhərlərində kəssinlər ki, burada - öz ətrafında olan yoxsul və kimsəsizlərə həmin qurban ətindən pay versinlər.

Konkret kiminsə dünyadan köçmüş atası əvəzində qurban kəsdirməyinə gəlincə, bu da olar. Dediyim kimi, Həcc ziyarətindəki qurbandan savayı, digərləri üçün şəri, vacibat hökmü yoxdur.

Bir məqamı da deyim. Ola bilər ki, qonşuluğumuzda müsəlmanlardan savayı, digər dinlərə mənsub, məsələn, xristian, yəhudi kasıblar da var. Biz kəsdiyimiz qurbandan həmin yoxsul qeyri-müsəlmanlara da verməyə borcluyuq. Onlar da biləcək ki, bu gün müsəlmanların Qurban bayramıdır.

Özü də necə bir gözəl bayramdırsa, biz müsəlman olmasaq belə, bizim də qapımızı döyüb bizə də pay verdilər.

Bu minvalla həm müsəlmanlarla qeyri-müsəlmanlar arasında xoş münasibət, məhəbbət, mehribanlıq yaranır. Eyni zamanda həmin qeyri-müsəlmanların qəlbində İslama, müsəlmanlara qarşı hüsni-rəğbət və sevgi baş qaldırır.

***- Bütpəst qonşuya da Qurban payı verilə bilərmi?***

- Bəli, fərqi yoxdur, lap dinsiz, ateist olsun. Hər kim olursa-olsun, sənin qonşundursa və imkansızdırsa, kəsdiyin qurbandan Allah rizası üçün ona da pay verməklə həm böyük savab qazanırsan, həm də onun qəlbində İslama, müsəlmanlara sevgi məhəbbət yaradırsan.

***- Alınmış qurbanlığın ölməsi, yaxud kəsildikdən sonra qurbanın ətinin xəstə olduğunun ortaya çıxması halında yeni heyvan alıb kəsmək gərəklidirmi?***

- Bəli, ola bilər ki, bir adam bayramdan bir ay öncə qurbanlıq qoç alıb həyətinə gətirib və bütün əzaları yerində, sağlamdır. Qurban bayramına bir gün qalmış həmin heyvan xəstələnir və ölür. Bu adamın da imkanı yoxdur artıq ikinci qurbanlıq heyvan almağa... Artıq buna heç ehtiyac da yoxdur. Qurbanlıq borcu onun boynundan götürülür. Heç bir narahatlığı yoxdur. Yəni bəndə açıq qəlblə niyyət etmişdi, həmin heyvanı kəsməyə, amma Allah istəmədi, məsləhət olmadı... Biz elə fakta rast gəlmişik ki, adam qurban kəsmək üçün dana alıb, bayram ərəfəsi heyvan qaçıb əldən çıxıb. Həmin adamın imkanı, pulu olub gedib yeni heyvan alıb kəsib və yaxud başqa bir məqam da ola bilər. Tutaq ki, biri pul toplamışdı, qurban almağa, bayramdan iki gün öncə, hansısa bir hadisə, qəza, xəstəlik və s. baş verdi və həmin vəsait məcburən xərcləndi, əldən çıxdı. Yenə də heç bir narahatçılığı yoxdur, əgər həmin insan Allah rizası üçün həmin pulla qurbanlıq heyvan alıb kəsməyi niyyət etmişdisə və hazırda onun əlində doğrudan da eyni məbləğdə başqa pul qalmayıbsa, artıq bu vəzifə onun boynundan götürülür...

Heyvanın kəsiləndən sonra xəstə olmasının bilinməsi kimi bir faktla isə rastlaşmamışam. Bu, nadir hallarda olur. Əgər heyvan kəsməmişdən öncə yeyirsə, içirsə, deməli, o, sağlamdır.

***- Hacı, təbii ki, ötən il olduğu kimi bu il də işğaldan azad torpaqlarımızda da Qurban bayramı keçiriləcək, bayram namazları qılınacaq, qurbanlar kəsiləcək. Qafqaz Müsəlmanları İdarəsi tərəfindən həmin bölgələrdə hansısa xüsusi bayram tədbirlərinin keçirilməsi nəzərdə tutulubmu?***

- Bəli, Azərbaycanın bütün bölgələri kimi, şükür Allahın cəlalına ki, biz ötən il olduğu kimi, bu il də azad olunmuş torpaqlarımızda, Qarabağda, Şuşada, Ağdamda qurbanlarımızı kəsəcək və bayram namazlarımızı qılacağıq. Hələ ki, idarəmiz tərəfindən Qarabağda xüsusi bir tədbir nəzərdə tutulmayıb. Rəhbərimiz - Şeyx həzrətləri Böyük Britaniyada rəsmi səfərdədir. İdarəmizin digər bölgələrdə olduğu kimi, Qarabağ ərazisində də xüsusi nümayəndələri, qaziləri, imamları var. Onlar Qurban bayramı ilə bağlı bütün mərasimləri lazımi qaydada təşkil edəcək... Rəhbərlik onlara bununla bağlı tapşırıqlarını verib. Xalqın, camaatın müraciətlərinə, dövlətimizin qərarlarına uyğun hansısa digər bayram tədbirləri olsa, inşallah, biz işğaldan azad torpaqlarımızda da həmin tədbirlərə qatılacağıq...

Allah-Taala bayramımızı mübarək etsin, dövlətimizi, ordumuzu, xalqımızı güclü etsin, bayrağımızı uca etsin. Allah bütün dünyaya sülh bəxş etsin! Planetimizin bir sıra ölkələrindəki, o cümlədən Yəməndə, Liviyada, Suriyada, Ukraynada və s. müharibə alovlarını söndürsün. Bütün ailələrə dinclik, əmin-amanlıq və hüzr bəxş etsin, inşAllah!..

***✍ Sultan Laçın***

Aktual

***Məlum olduğu kimi, yanvar ayından etibarən işğaldan azad olunmuş ərazilərə avtobus reysləri açılıb. Hazırda vətəndaşların sözügedən ərazilərə 5 marşrut xətti üzrə səfər etməsi mümkündür. Bu marşrut xətləri Bakı-Şuşa-Bakı, Bakı-Ağdam - Bakı, Bakı-Füzuli-Bakı, Əhmədbəyli - Şuşa - Əhmədbəyli və Bərdə - Ağdam- Bərdədir. Bakı-Şuşa-Bakı xətti üzrə biletlərin qiyməti 20 manat 80 qəpik, Bakı-Ağdam - Bakı istiqamətində 18 manat 80 qəpik, Bakı-Füzuli-Bakı istiqamətində 18 manat 40 qəpik, Əhmədbəyli - Şuşa - Əhmədbəyli istiqamətində 14 manat, Bərdə - Ağdam- Bərdə istiqamətində 10 manatdır. Bu ərazilərə səfər etmək istəyən vətəndaşlar biletləri https://yolumuzqarabaga.az saytından əldə edə bilərlər.***

# Azad edilmiş rayonlara səyahət




Qeyd edək ki, iyul ayına Şuşa istiqamətinə hazırda bilet yoxdur, bu xətt üzrə bütün biletlər satılıb. Amma Bakı-Ağdam - Bakı, Bakı-Füzuli-Bakı və Bərdə - Ağdam- Bərdə istiqaməti üzrə bilet satışı aktivdir. Bu istiqamətlərə səfər etmək istəyənlər yolumuzqarabaga.az saytına daxil olaraq bilet əldə edə bilərlər.

Maraqlıdır, görəsən, işğaldan azad olunmuş ərazilərə, xüsusilə Şuşaya səyahət etmək üçün bilet tapa bilməyənlər şəxsi avtomobilləri ilə bu ərazilərə səfər edə bilərlərmi? Ümumiyyətlə, bu ərazilərə kimlərin hansı şərtlər daxilində səfər etməsi mümkündür? İndiyədək azad olunmuş ərazilərə nə qədər avtobus reysi həyata keçirilib və bu reyslər vasitəsilə ziyarət edənlərin sayı nə qədər olub?

Qeyd edək ki, 18 yaşı tamam olmuş və COVID-19 pasportu olan istənilən Azərbaycan vətəndaşı ”Yolumuz Qarabağa” portalında qeydiyyatdan keçərək, təyin olunmuş istiqamətlər üzrə bilet ala bilər.

Bilet seçimi etdikdən sonra sistemə elektron (”email”) ünvanı, şəxsiyyət vəsiqəsinin seriyası və fərdi identifikasiya nömrəsi daxil olunmalıdır. Bundan başqa, mobil telefonun nömrəsi də tələb olunur. Tələb olunan məlumatlar sistemə daxil edilən zaman şəxsin məlumatları müvafiq informasiya sistemlərindən yoxlanılır.

Bilet ödənişləri onlayn qaydada həyata keçirilir. Sərnişinlər qayıdış biletini də qabaqcadan almalıdırlar. Ödəniş uğurlu olduqdan sonra, vətəndaş portala yönləndirilir və bilet məlumatları ilə tanış olur. Onlayn biletlər yüklənilə, həm də çap edilə bilər.

Vətəndaşlar təyin olunmuş marşrut xətləri üzrə limitsiz sayda azad olunmuş ərazilərə səfər edə bilərlər. Müəyyən imtiyazlı şəxslərə isə ildə bir dəfə bu istiqamətlər üzrə pulsuz bilet almaq imkanı yaradılıb. Bu kateqoriyaya



*“Müəyyən imtiyazlı şəxslərə ildə bir dəfə bu istiqamətlər üzrə pulsuz bilet almaq imkanı yaradılıb*

Vətən müharibəsi qəhrəmanları, Milli qəhrəmanlar, şəhid ailəsinin üzvləri, Qarabağ müharibəsi əlilləri aiddir.

■ **Mövzu ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən hafta.az-ın sorğusuna cavab olaraq bildirilib ki, işğaldan azad olunmuş ərazilərə müəyyənləşdirilmiş marşrut xətləri üzrə hər gün avtobuslar işləyir:** “Mütəmadi olaraq marşrutlar təhlil edilir, həmçinin tələbat və bilet satışı dinamikası, eləcə də vətəndaşların istəkləri nəzərə alınaraq avtobusların hərəkət cədvəllərində müəyyən dəyişikliklər edilir. Təhlillər nəticəsində Şuşaya reyslərin sayı artırılıb. Artıq sərnişinlər həftənin bütün günləri Şuşaya səfər edə bilirlər”.

*“Fərdi avtomobillərlə səyahətin mümkün olmaması birbaşa təhlükəsizliklə bağlıdır*

Qurumdan verilən məlumata görə vətəndaşların işğaldan azad edilmiş ərazilərə səfərlərini asanlaşdırmaq üçün nəqliyyat infrastrukturu qurulur: “İşğaldan azad olunmuş ərazilərə səfər zamanı həm sərnişinlərin, həm də ümumilikdə hərəkətin təhlükəsizliyi təmin edilməlidir. Bu məqsədlə vətəndaşlar polis əməkdaşları tərəfindən müşayiət edilir.

30 illik işğal dövründə Qarabağ bölgəsində infrastruktur tamamilə məhv edilib. Hazırda regionda bərpa və quruculuq işləri sürətlə davam etdirilir. Səfərlərin gündəlik sayı mövcud infrastruktur nəzərə alınmaqla tənzimlənir”.

Hazırda vətəndaşların şəxsi avtomobilləri ilə azad olunmuş ərazilərə səyahət etmək imkanının olub-olmaması barədə sualımızın cavabında isə qurumdan bildirilib ki, Dövlət Avtomobil Nəqliyyatı Xidməti işğaldan azad edilmiş ərazilərə yalnız müntəzəm avtobus reysləri təşkil edir”.

Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin işğaldan azad olunmuş ərazilərə yanvarın 24-dən istifadəyə verdiyi müntəzəm avtobus marşrutları ilə bu günədək 225 reys həyata keçirilib, Şuşa, Ağdam və Füzuli şəhərlərini ümumilikdə 9 678 nəfər ziyarət edib.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən nəqliyyat sahəsi üzrə ekspert Eldəniz Cəfərov bildirib ki, hazırda azad olunmuş ərazilərə şəxsi avtomobillərlə turist kimi səfər etmək qeyri-mümkündür:** “Bu yalnız o halda ola bilər ki, səfər işgüzar bir səfər olsun. Fərdi avtomobillərlə səyahətin mümkün olmaması birbaşa təhlükəsizliklə bağlıdır. Bu ərazilərə gedənhər avtobus üçün polis patrulu ayrılır, çox yüksək təhlükəsizlik tədbirləri görülür. Üstəlik, həmin ərazilərdə infrastruktur da tam qurulmayıb, bu ərazilər hazırkı durumda məhdud sayda qonaq qəbul etmək imkanındadır. Nəqliyyat vasitələrinin hərəkət imkanları baxımından “Zəfər yolu” da hələ ki üstün durumda deyil. Orada yalnız ikizolaqlı yol hərəkəti qurulub. Bir gediş, bir gəliş zolağı var. Məsələn, əgər biz insanların kütləvi şəkildə gəlməsi üçün Şuşanın qapılarını açmış olsaq, orada kilometrlərlə tıxaclar olacaq. Ona görə də səbirlə nəqliyyat infrastrukturunun tam qurulmasını gözləməliyik. Təbii ki, infrastruktur yeniləndikdən sonra, artıq həm müntəzəm gedişlər daha fərqli formada təşkil ediləcək, həm də şəxsi avtomobillə səyahət etməyə icazə veriləcək”.

***✍ Sevinc***

# “Tanrı evində gizlənən sevgi”

## “Əliş və Anna” poemasından

***“Yuxular gerçək olmadığı kimi yaşanan hadisələr də bir parça xoşbəxtlikdə gizlidir. Qalanları sadəcə yalandır”. Həyatımızda baş verən hadisələr qarışıq duyğularımızdan doğulan kabusdur. Bu kabuslar bəzən yaralayır, incidir, bəzən də gücləndirir. Neçə-neçə şahid olduğumuz “sevgi tarixçələri” bu dediklərimə misaldır. Baxın, “sevgi macəraları” söyləmədim, “tarixçə” dedim, çünki sevginin yaşı olmur. Onun yaşı olarsa, demək, sevgililərin ayrılıq günü gəlib çatıb.***

### Ədib



Sevginin yaşı olmadığı kimi hadisələrin də bəzən səbəbi olmur. Səbəbsiz hadisələr sonsuz sevgilər kimi gizlidir. Onların tarixçəsini bilmək üçün siz də bu qarışıq duyğuları yaşamalısınız

Anlatdığım “qarışıq duyğuları” şair Zaur Ustacın “Əliş və Anna” poemasında yenidən yaşadım. Bu qarışıq duyğuların adı olmur. Düşünün, yaşanan hadisələrin adı varmı? Təbii ki, yoxdur!

Zaur müəllimin yaradıcılıq dünyasına səyahət etdikdə möcüzəli çərxi fələklə rastlaşdığımı söyləməliyəm. Bu gün məhz “Əliş və Anna”dan deyil, onların Tanrıya bağlanan sevgisindən danışacam. Onların sevgisinə mən də şahid olduqda bir neçə dəqiqəlik Nizaminin “Leyli və Məcnun”una səyahət etdim. Oxşarlıq deməyək, çünki mən heç vaxt iki müxtəlif sevgini bir-birinə bənzətmirəm. Sevgi tək varlıqdır. Hər insanın dünyasında yaşayan həmdəmidir, onun parasıdır. Baxın, başlıqda qeyd etdiyim kimi “hadisələr də bir parça xoşbəxtlikdə gizlidir”. “Bir parça xoşbəxtlik” dedikdə sevgini nəzərdə tutdum. Yəni ki, insan ömründə çox hadisələr baş verə bilər, bu bir insan, yaxud məzlum ola bilər. Ancaq onun “bir parça xoşbəxtliyi” hamıdan xəbərsiz qəlbinin dərinliklərində gizlidir. Bu dediyim “xoşbəxtlik” Sevgidir. Əliş və Annanın da sevgisi qəlblərində gizlidir, həm də ən dərinlikdə. Əgər “sevgi” nəfəs alırsa, demək onlar da yaşayır. Hamı çalışdı ki, Əliş və Annanı bir-birindən ayırsın. Unutmayın ki, Anna Əlişin qollarında olmasa belə qürbət ellərdə olsa da, qəlbinin evində SEVGİ var. O hələ də yaşayır! Əgər Sevgi ölməyibsə, onlar ölə bilməz!

Ən təsirli səhnə də Əlişin başının boynundan ayrılması idi. Yenidən bu səhnəni qələmə aldıqda dediyim “qarışıq duyğuları” yaşayıram. Bu duyğuların hər birində Əliş və Annanın sevgisi xatırlanır. Zaur müəllimin qələmi bu hayqırışı elə söyləyib ki, səsi duyulmur bu ah-nalənin. Annanın ah-naləsini duyan yalnız Əliş və qəlb evində gizlənən Sevgidir!

Siz bilirsinizmi ki, hər dəfə hayqırışınız, üsyanınız, kədər-qəminizi duyan Sevgi çiçək kimi ömründən bir ləçək qoparır? Bu qopan ləçəklər geri dönmür. “Yalana sarılmış insanlar” düşündülər ki, Əliş və Annanı ayıracaqlar. Bəlkə bu fani dünyada qovuşa bilmədilər, ancaq Tanrı onlara qollarını açdı Onların ölü bədənindən qorxub qaçan Sevgi Tanrının evində gizləndi. Beləliklə, Əliş və Annanın sevgisi ölümsüzləşdi!

***✍ Səma Muğanna, Azərbaycan Yazıçılar Birliyinin üzvü***

## HƏFTƏ REYTİNQ

### Həftənin ÜZRÜ



Rusiyalı teleaparıcı Vladimir Solovyov separatçı David Babayanı “Solovğev Live” proqramına dəvət etdiyi üçün Azərbaycandan üzr istəyib. Solovyov “Solovğev Live” proqramının səhər buraxılışında bu barədə danışıb. O, separatçı Babayanı efirə dəvət etməklə siyasi səhvə yol verdiyini etiraf edib: “Böyük siyasi səhvə yol verdim. Sözü yalnız bir tərəfə verməyim mənim səhvim idi. Bu mənim səhvimdir və üzr istəyirəm, sözü Azərbaycan tərəfinə verməyə hazıram”. Bununla yanaşı, Solovyov daha sonra Azərbaycandan növbəti dəfə üzr istəyib.

### Həftənin ETİRAZI



İrəvanda erməni müxalifətçilər aksiya keçirərək ölkədəki qanun səviyyəsindən narazılıqlarını bildiriblər. “Müqavimət” hərəkatının nümayəndələri Prezident İqamətgahının qarşısına xiyar qoyublar. “Baxmayaraq ki, Prezident Konstitusiyanın qorunması ilə məşğul olmalıdır, lakin o Ermənistanda tərəvəz və bostan bitkilərinin nümayəndəsidir, heç bir iş görmür və bir nəfərin göstərişinə əməl edir. Biz ona bu tərəvəzi fəaliyyətsizliyinin simvolu kimi gətirmişik, jestimizdə heç bir şəxsi təhqir yoxdur”, - deyə aksiya iştirakçıları qeyd ediblər.

### Həftənin MƏŞHURLARI



Türkiyədə iyunun 28-i “Sarallar” cinayət təşkilatına qarşı həyata keçirilən əməliyyatla bağlı yeni detallar məlum olub. Məsələ ilə bağlı araşdırma çərçivəsində bir neçə tanınmış şəxsin polis bölməsinə çağırıldığı məlum olub. Məlumata görə, dindirilmək üçün çağırılan məşhurlar sırasında müğənni Aylin Coşkun, aktyorlar Necati Şaşmaz, Erkan Petekkaya və aparıcı Sinan Engin də var.

### Həftənin QONAĞI



Türkiyəli aktyor Burak Özçivit Bakıya gəlib. Bu barədə o, instaqram hesabında məlumat verib. “Səhər-səhər Bakıda”, - paytaxt aeroportundan foto paylaşan Özçivit yazıb. Qeyd edək ki, B. Özçivit Bakıda kikboksla bağlı tədbirdə iştirak edib.

### Həftənin ƏSGƏRİ



FHN əməkdaşı cüdo üzrə beynəlxalq turnirdə qızıl medal qazanıb. 2-3 iyul 2022-ci il tarixlərində Rumıniyanın Kluj-Napoka şəhərində Cüdo üzrə böyüklər arasında Açıq Avropa turniri keçirilib. Yarışda 32 ölkənin 200-dən artıq idmançısı iştirak edib. Beynəlxalq turnirdə Azərbaycan cüdo millisinin üzvü Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə qoşunlarının əsgəri Murad Fətiyev 90 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək yarışın qızıl medalına sahib olub.

### Həftənin MƏĞLUBİYYƏTİ



Ölkəmizi UEFA Çempionlar Liqasında təmsil edən “Qarabağ” yeni mövsümdə ilk matçına çıxıb. Qurban Qurbanovun komandası qitənin bir nömrəli yarışının 1-ci təsnifat mərhələsində Polşa “Lex”i ilə qarşılaşıb. “Köhlən atlar” “Lex”lə ilk matçını Polşada keçirib və minimal hesabla məğlub olub. Komandaların cavab matçı bir həftə sonra Bakıda baş tutacaq.

*✍ Azad Əliyev*




## “Nar” BMT-nin dayanıqlı inkişaf məqsədlərini dəstəkləyən Qlobal Sazişinə qoşuldu

**“Nar” KSM istiqamətində gördüyü işləri yeni mərhələyə qaldıraraq dünyanın sosial məsuliyyətli bizneslərini bir araya toplayan Birləşmiş Millətlər Təşkilatının Qlobal Sazişinə qoşuldu.**

“Nar”ın icraçı direktoru Qunnar Pankenin bildirdiyinə görə, BMT-nin Qlobal Sazişində iştirak etməklə “Nar” sosial, iqtisadiyyat və insan rifahı üzrə korporativ məsuliyyətini daha da sistemləşdirməyi hədəfləyir. “Uzun illərdir ki, davamlı inkişaf və məsuliyyət prinsipini rəhbər tutan bir şirkət olaraq BMT Qlobal Sazişinin bir hissəsi olmaqdan qürur duyuruq. Cəmiyyətə faydalı olmaq üçün etdiyimiz KSM layihələr ilə daha yaxşı gələcəyə öncüllük edəcəyimizə inanırıq. Bu sazişə qoşulmağımız da yolumuza sadiqliyin nümunəsidir”, - deyə o qeyd edib.

“Azərbaycan cəmiyyəti getdikcə qlobal davamlılığa ümumi prioritet kimi yanaşır və bu yanaşma cəmiyyətin bütün kəsimlərini - fərdi, ailə, dövlət və müxtəlif ölçülü biznesləri və sənaye müəssisələrini əhatə edir. ”Azerfon” şirkətinin BMT-nin Qlobal Sazişi üzrə öhdəlikləri buna əyani sübutdur. Bunlar hələ qarşıda duran mühüm hədəflər olduğundan, mən əminəm ki, “Nar”, onun rəhbərliyi və bütün şirkət əməkdaşları Azərbaycanda korporativ davamlılığın nümunəvi şəkildə formalaşması və təşviqində aparıcı mövqe tutacaq”, - deyə BMT Qlobal Sazişinin Azərbaycan üzrə rəhbəri Samir Məmmədov bildirib. Qeyd edək ki, BMT Qlobal Sazişinin 10 prinsipini KSM strategiyasına, əmək siyasətinə və müxtəlif prosedurlarına tətbiq etməklə bu sazişə qoşulan şirkətlər cəmiyyət və planet qarşısında məsuliyyətlərini qoruyurlar. “Nar” üçün Qlobal Sazişin dayanıqlı inkişaf prinsiplərinin ən önəmli maddələrindən olan insan hüquqları, əmək və ətraf mühit sahəsində öhdəliyi xüsusi əhəmiyyət kəsb edir. BMT Qlobal Sazişində Azərbaycanı təmsil edən ilk telekommunikasiya şirkəti olaraq, “Nar” təhsilin inkişafına dəstək, işçilər üçün rahat əmək şəraitinin yaradılması, gender bərabərliyi istiqamətində layihələrə dəstək verilməsinə fokuslanır.

## “Azercell” rabitə bazarında yeni biznes istiqamətini təqdim edir! Ⓡ

**Azərbaycan telekommunikasiya sektorunda ilk dəfə olaraq özündə həm bank əməliyyatları, həm də mobil rabitə imkanlarını birləşdirən Azercell Fintek məhsulları yaxın zamanda bütün abunəçilərə maliyyə xidmətləri göstərəcək.**




Müştərilərini əlçatımlı, eyni zamanda istifadədə rahat və şəffaf xidmətlərlə təmin etməyə çalışan “Azercell Telekom” özünün rəqəmsal məhsullar çeşidini genişləndirərək müştərilərin nağdsız hesablaşma və ödənişlərini daha rahat şəkildə yerinə yetirməyə imkan yaradacaq xüsusi layihəsini təqdim edir.

Abunəçilərə təqdim olunacaq rəqəmsal kart müxtəlif növ ödənişlər həyata keçirməyə, hesabdakı balansı artırmağa imkan verəcək ki, həmin maliyyə məhsulları sürətli və asan müştəri identifikasiyasını təmin edən ucdan-uca rəqəmsal təcrübə üzərində qurulacaq. İstehlakçının ənənəvi ödəmə üsullarını və vərdişlərini dəyişərək Azercell Fintek müştərilər üçün rahat rəqəmsal nağdsız ödəniş vasitəsinə çevrilmə potensialına malikdir. Eyni zamanda, abunəçilər xidməti aktiv etmək üçün ofisə baş çəkmədən birbaşa Azercell-in yenilənmiş “Kabinetim” mobil tətbiqi vasitəsilə bu imkandan yararlana bilər.

Bu rəqəmsal kart həm fakturalı xətt, həm də fakturasız xətt (SimSim) abunəçilərinə bir sıra standart qeydiyyat prosedurlarından keçmədən maliyyə xidmətlərinə asan çıxış imkanı yaradacaq. Qeyd edək ki, “Azercell Telekom” bu layihəni “PAŞA Bank”, “Visa” və “AzİnTelecom” da daxil olmaqla bir sıra tərəfdaşlarla birgə əməkdaşlığı çərçivəsində həyata keçirir.

“Azercell”in Big Data, Təhlillər və Xüsusi layihələr departamentinin direktoru Azad Hüseynovun qeyd etdiyi kimi: “Bütün ölkəni əhatə edən geniş şəbəkəmizə bankçılıq və fintek funksionallığı əlavə etmək göstərdiyimiz xidmət çeşidinin genişləndirilməsi, müştəri məmnunluğu və bağlılığının gücləndirilməsi və, əlbəttə ki, biznesin dayanıqlılığı baxımından bizim üçün böyük imkanlar yaradır.”

Bu yeni məhsulun ilk istifadəçiləri olmaq istəyən abunəçilərimiz üçün www.azercell.com <http://-www.azercell.com> səhifəsi vasitəsilə öncədən sifariş imkanı artıq mümkündür. Bunun üçün Azercell-in rəsmi saytında qeydiyyatdan keçmək kifayətdir.

Xatırlatmaq istərdik ki, məhz Azercell bir neçə il öncə ilk olaraq özünün “Kabinetim” tətbiqi vasitəsilə “Mobil Ödəmə” xidmətini bazarda təqdim etmişdir. Azercell Rəqəmsal Kartı mobil rabitə bazarında maliyyə xidmətləri sahəsində dönüş nöqtəsinə çevrilərək istifadəçilərə rəqəmsal texnologiyaların imkanlarını daha yaxın və rahat edəcək.

## “Bakcell” abunəçiləri üçün onlayn qaydada eSIM almaq imkanı Ⓡ

**“Bakcell” abunəçiləri eSIM əldə etmək üçün artıq onlayn qaydada müraciət edə biləcəklər. Bir müddət əvvəl Azərbaycanda ilk dəfə olaraq eSIM texnologiyasını tətbiq edən Bakcell bununla bağlı daha bir yenilik edib.**




Mobil nömrəsi hazırda aktiv olan abunəçi esim.bakcell.com səhifəsinə daxil olub istifadəsindəki mövcud Bakcell nömrəsini, əldə etmək istədiyi yeni mobil nömrəni (eSIM), ad və soyadını, şəxsiyyət vəsiqəsinin nömrəsini və müvafiq FİN kodunu qeyd etməlidir. Bu zaman ekranda əks olunan xüsusi QR kodu skan etməklə yeni eSIM virtual nömrəni əldə etmək mümkündür. Smartfonun eSIM texnologiyasını dəstəkləməsini yoxlamaq və xidmət barədə daha ətraflı məlumat almaq üçün esim.-bakcell.com səhifəsinə keçmək lazımdır. Azərbaycanda ilk dəfə olaraq Bakcell tərəfindən istifadəyə verilmiş eSIM sayəsində plastik SIM karta ehtiyac qalmır. Yeni nəsil SIM texnologiyası olan eSIM Bakcell abunəçilərinə mobil şəbəkəyə qoşulmaq və rabitə xidmətlərindən istifadəni xeyli sadələşdirən yeni imkanlar yaradır. eSIM vasitəsilə tək SIM kartlı smartfonlarda bir neçə nömrədən istifadə etmək mümkündür.

### ELAN

**Göyçay şəhər Əhməd Cavad küçəsi 44 a nömrəli ünvanda yaşayan Umudov İldırım Ənvər oğlunun adına verilmiş torpaq sahəsinin plan və ölçüsü itirildiyi üçün etibarsız sayılır.**

### GÜNÜN FOTOSU



**Modellər Parisdə Chanel üçün 2022-2023 payız-qış dəbini təqdim edir**

## Xəzərin hüquqi statusu haqqında müqavilə qüvvəyə minməyib

**Hasan Oktay,**
Türkiyə Qafqaz Araşdırmaları Mərkəzinin rəhbəri

Aşqabadda əldə olunan nəticələr Avropanın Azərbaycana münasibətinə mənfi təsir göstərməyəcək.

▸▸ Səh. 3

### STATİSTİKA




**■ 2022-ci il iyulun 1-nə olan vəziyyətə görə, Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları 7,371 milyard dollar təşkil edib.**

Bu barədə AMB-nin hesabatında bildirilib. Hesabata əsasən, bu göstərici ötən ayla müqayisədə 1,95 faiz çoxdur. Ötən ilin eyni dövrü ilə müqayisədə isə valyuta ehtiyatları 14,2 faiz artıb.



▸▸ Səh. 2

## İrəvanda qalan tarixi irsimiz